KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎ PLOMAT

www. Diplomata-kurdi.com

№ 13 (161), 9 - 15 Aprel, Nîsan - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sî yasî

Qiymətı, Hêjaye, 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu




## İlham Əliyevin Çexiya Respublikasına dövlət səfəri başa çatmışdır

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNİN GÖRÜNMƏYƏN TƏRƏFİ


Səh. 8-9

*Əgər Türkiyə rəhbərliyi İlham Əliyev siyasətini həyata keçirərsə, Kürd məsələsi 24 saat ərzində öz həllini tapar*


Səh. 12

## Serokê Herêma Kurdistanê ji aliyê Serokê Wilayetên Yekgirtiyê Emerîka ve hate pêşwazî kirin

## DÜNYA XƏRİTƏSİNDƏ YENİ DÖVLƏTLƏR-KÜRDÜSTAN VƏ ƏRƏB ŞİƏ CUMHURİYYƏTİ
Səh. 5

## "PKK görünür yenə də Suriya və İrandan daha çox dəstək almağa başlayıb"
Səh. 10

## Ağdaban faciəsi qurbanlarının xatirəsi ehtiramla yad edilmişdir
Səh. 14

## İraq Kürdüstanının yeni hökuməti təsdiq olundu
Səh. 3

## Kürdüstan muxtariyyəti Türkiyəyə kömək etməyə hazırdır
Səh. 3

## 31 MART QIRĞININDAN 94 İL ÖTÜR
Səh. 10


Səh. 6

## AĞLAYIR


Səh. 16

## Новый кабинет министров КРГ приведен к присяге


Səh. 13

## Öcalan halkın içinde olmalı


Səh. 15

## Выставку картин Омрана Шейхмуса открыл Шван Парвар


Səh. 13

## 'Özgürlüğe adadık'


Səh. 3

## Şemdinli'de çatışma


Səh. 15

## В Турции судят экс-президента


Səh. 15

## С. Демирташ: мы всегда готовы к диалогу

# İlham Əliyevin şərəfinə dövlət naharı verilmişdir



Çexiya Prezidenti Vatslav Klaus və xanımı Livia Klausovanın adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət naharı verilmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı bir daha salamlayan Çexiya Prezidenti bir il əvvəl Bakıya səfəri zamanı başlanan dialoqu davam etdirmək, beynəlxalq münasibətlərin aktual məsələləri, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın imkan və perspektivləri barədə müzakirələr aparmaq baxımından Azərbaycan dövlətinin başçısının Praqaya səfərinin əhəmiyyətindən danışdı.

Çexiya dövlətinin başçısı Vatslav KLAUS dedi:

- Hörmətli, cənab Prezident!

Bilirəm ki, Praqaya dövlət başçısı qismində ilk dəfə səfər etmisiniz. Mən ölkəmizin Avropa İttifaqında sədrliyi çərçivəsində təşkil edilmiş "Şərq tərəfdaşlığı" Sammiti zamanı Sizinlə görüşümü xatırlayıram. İnanıram ki, Sizin bugünkü səfəriniz əminliklə inkişaf edən Çexiya-Azərbaycan münasibətlərinə yeni mühüm təkan verəcəkdir.

Bizim münasibətlərin dərin əsasları vardır. İqtisadi əməkdaşlığımız artıq kommunizm dövründə başlamış, Çexiya sənayesinin məhsulları Azərbaycan bazarında və Sizin sənaye sahəsində yaxşı tanınır. Buna baxmayaraq, birbaşa münasibətlərimizin inkişaf etdirilməsi yalnız son 20 ildə - Sizin ölkəniz müstəqilliyini bərpa etdikdən sonra mümkün olmuşdur.

Çox təqdirəlayiqdir ki, qarşılıqlı münasibətlərimizin intensivliyi bütün səviyyələrdə artmaqdadır. Buna həm də Praqada və Bakıda nümayəndəliklərimizin açılması, səfirlərin yaxşı işi və iki paytaxt arasında birbaşa hava əlaqəsinin təşkili yardımçı olmuşdur. Bundan əlavə, yüksək səviyyəli qarşılıqlı səfərlərin sayının artmasını və güclənən işgüzar əlaqələri də qeyd etməyə dəyər. Bunların zirvəsi, sözsüz, prezidentlərin dövlət səfərləridir ki, buna misal kimi mənim Bakıya ötənilki səfərimi və Sizin bu gün burada olmağınızı göstərmək olar.

Keçən ilin mayında biz Sizin gözəl ölkənizin sürətli və dinamik inkişafının şahidi olmaq imkanı əldə etdik. Sizin hazırladığınız və artıq həyata keçirdiyiniz möhtəşəm layihələrlə tanış ola bildik. Çexiya şirkətləri Sizin iqtisadiyyatın inkişafında iştirak etməyə böyük maraq göstərirlər. Artıq sənaye, infrastrukturun yaradılması, texnologiya və avadanlığın, həmçinin istehlak mallarının təchizatı sahələrində uğurlu əməkdaşlıq nümunələri vardır ki, onlara əsaslanaraq ortaya yeni imkanlar çıxara bilərik. Burada qeyd etmək istərdim ki, Azərbaycan Çexiyanın təsərrüfatının ən mühüm tədarükçülərindən birinə və strateji tərəfdaşına çevrilmişdir.

Hörmətli cənab Prezident!

Arzu edirik ki, çox mürəkkəb siyasi regionda yerləşən ölkəniz sabitlik və sülh şəraitində inkişaf etsin. Arzu edirik ki, artıq uzun müddət ölkənizdə vəziyyəti çətinləşdirən münaqişənin sülh yolu ilə həllinə nail olunsun. Çexiya Respublikası bu məqsədlərə yönəlmiş bütün beynəlxalq tədbir və təşəbbüsləri daim dəstəkləmiş və gələcəkdə də dəstəkləməyə davam edəcəkdir.

Çexiya Prezidenti Azərbaycan dövlətinin başçısının Praqaya dövlət səfərinin iki ölkə arasında qarşılıqlı münasibətlərə əhəmiyyətli təkan verəcəyinə və Azərbaycan nümayəndə heyətinin Çexiyadan xoş təəssüratlarla ayrılacağına inamını bildirdi.

Prezident Vatslav Klausun çıxışından sonra Azərbaycan Respublikasının dövlət himni səsləndi.

* * *

Sonra Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış etdi.

Dövlət başçısı zəngin tarixi və mədəniyyəti ilə seçilən dost Çexiyaya səfərindən məmnun qaldığını bildirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, ölkələrimiz arasındakı əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyev Çexiya dövlətinin başçısının ötən ilin mayında Azərbaycana səfəri zamanı aparılan danışıqların münasibətlərin yeni müstəvidə genişlənməsinə verdiyi töhfədən danışaraq dedi:

- Son illər birgə səylərimizlə əlaqələrimiz daha da intensivləşmişdir. Ötən il Hökumətlərarası Komissiya yaradılmış və ilk iclasını keçirmişdir. Ölkələrimiz arasında ticarət dövriyyəsi 2010-cu illə müqayisədə 2011-ci ildə bir neçə dəfə artmışdır.

Azərbaycanda həyata keçirilən mühüm layihələrdə Çexiya banklarının iştirakı, həmçinin Çexiya Respublikasının enerji təminatında Azərbaycanın oynadığı rol iqtisadi əlaqələrin səviyyəsinin göstəricisidir. Energetika, ticarət, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın yaxşı perspektivləri vardır. Əminəm ki, mənim səfərim, əldə olunan razılaşmalar və bu gün mədəniyyət, turizm sahələrində imzalanan sənədlər də əlaqələrimizin inkişafına yeni təkan verəcəkdir.

Gələn il biz diplomatik münasibətlərimizin qurulmasının 20 illiyini qeyd edəcəyik. Ümidvaram ki, biz bu əlamətdar tarixə Azərbaycan və Çexiya arasında əməkdaşlıqda müxtəlif sahələrdə əldə olunmuş yeni nailiyyətlərlə daxil olacağıq.

Ölkələrimiz BMT, ATƏT, Avropa Şurası kimi beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Bu mötəbər təşkilatın ali orqanında ilk dəfə təmsil olunan ölkəmizin səyləri beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsinə, dünyada sülh və ədalətin bərqərar olmasına kömək edəcəkdir.

Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avratlantik strukturlarla münasibətlər önəmli yer tutur. Əfqanıstanda əsgərlərimiz sabitliyin keşiyində çiyin-çiyinə dayanıblar.

Fürsətdən istifadə edərək Çexiya Respublikasına Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafına verdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm. Artıq regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan, həmçinin enerji sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün töhfəsini bundan sonra da verməyə hazırdır. 2011-ci ilin yanvar ayında Avropa Komissiyası ilə Azərbaycan arasında "Cənub qaz dəhlizi" haqqında Birgə Bəyannamənin imzalanması bunun bariz nümunəsidir. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik.

Azərbaycan regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasının və qorunmasının tərəfdarıdır. Ancaq bildiyiniz kimi, tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı digər yeddi rayon 20 ildən artıqdır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Bu ərazilərdə Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, NATO və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır.

Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan dövlətinin başçısı səfər zamanı göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi və çex xalqına firavanlıq arzuladı.

Prezident İlham Əliyevin çıxışından sonra Çexiyanın dövlət himni səsləndi.

## İlham Əliyev Praqanın Vitkov Milli Memorialını ziyarət etmişdir

Prezident İlham Əliyev Çexiya Respublikasına dövlət səfəri çərçivəsində Praqanın Vitkov Milli Memorialını ziyarət etmişdir.

Praqanın qədim hissəsində yerləşən Vitkov Milli Memorialı 1929-1938-ci illərdə inşa olunmuşdur. Şəhərin ən hündür nöqtəsi olan bu təpədə 1420-ci ildə ağır döyüşdə qalib gələn sərkərdə Yan Jijkanın abidəsi qoyulmuşdur.

Azərbaycanın və Çexiyanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Sonra Azərbaycan dövlətinin başçısı Vitkov Milli Memorialı Muzeyinin xatirə kitabını imzaladı.

Muzeylə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, bu memorial Çexiyanın qəhrəmanlıq tarixini əks etdirir. Ölkə tarixinin ən şanlı hadisələri bu memorialda əks olunmuşdur. Çex xalqının azadlıq mübarizəsi bu muzeyin ekspozisiyasının əsas hissəsini təşkil edir. Burada azadlıq hərəkatının önündə gedən çex ziyalılarının xatirəsi dərin ehtiramla yad olunur, onların həyat və fəaliyyəti haqqında buraya gələnlərə ətraflı məlumat verilir.

Ekspozisiyaya, həmçinin müxtəlif sənədlər, tarixi anları əks etdirən qiymətli fotolar və digər zəngin eksponatlar daxildir. İldə on minlərlə turist bu muzeyə gəlir və çex xalqının milli mübarizə tarixi haqqında ətraflı məlumat əldə edir.

# "Suriyanın Dostları" konfransında bəzi çağırışlar edilib

*İstanbulda təşkil edilən "Suruya Xalqının Dostları" Qrupunun ikinci konfransı bəyanat yayıb*

Konfransda Suriya Milli Şura (SMŞ) bütün suriyalıların "qanuni nümayəndəsi" kim qəbul edilib, "Sanksiyalarla İş Qrupu" yaradılıb. Suriya iqtidarı ilə verdiyi təəhhüdləri dərhal icra etməsi, BMT və Ərəb Liqası xüsusi nümayəndəsi Kofu Annana da müddət cədvəli işləməsi kimi çağırışlar edilib. (Zaman)




80-dən artıq ölkə və bir çox beynəlxalq təşkilatın iştirak etdiyi bildirilən konfransda "Suriya Xalqının Dostları" Qrupu bir ildir davam edən hadisələrin dayandırılması üçün dünən İstanbulda görüşüb. Qrup xalqın qanuni müdafiə haqqını dəstəklədiyini açıqlayıb. Konfrans əsnasında BMT və Ərəb Liqası Suriya Xüsusi Nümayəndəsi Kofi Annanın Əsəd iqtidarına təqdim etdiyi planın həyata keçirilməsi üçün möhlət verilib-verilməməsi mövzusunda mübahisələr yaşanıb. Qrup möhləti özü təyin etmək yerinə bunu Annanın öhdəsinə qoyaraq, gələcək addımları ehtiva edən bir zaman təqviminin yaradılmasını istəyib.

Xatırladaq ki, konfrans öncəsi bu qrupa daxil olan Suriyanın 12 kürd təşkilatı konfransı boykot edib.

# İraq Kürdüstanının yeni hökuməti təsdiq olundu



Şimali İraq Kürd Muxtariyyəti tərəfindən baş nazir təyin edilən Neçirvan Bərzaninin bu gün yeni nazirlərin siyahısını parlamentə təqdim edəcəyi gözlənilir. Lent.az-ın "haberturk.com" saytına istinadən verdiyi məlumata görə, İraq prezidenti Cəlal Tələbaninin lideri olduğu İraq Kürdüstan Yurdsevərlər Birliyi və Şimali İraq Kürd Muxtariyyətinin rəhbəri Məsud Bərzaninin rəhbərlik etdiyi İraq Kürdüstan Demokrat Partiyası arasında razılaşdırılmış formada idarə edilən Muxtariyyətin yeni nazirləri arasında bir sürpriz şəxs də var.

Söhbət PKK sıralarında olmuş, terror təşkilatı tərəfindən xəyanətdə günahlandırılaraq haqqında edam hökmü çıxarılmış, qaçaraq Məsud Bərzaninin lideri olduğu təşkilata sığınmış və sonradan "general" kimi xüsusi peşmərgə qüvvələrinin rəhbərliyində olmuş Əziz Veysidən gedir. O, daxili işlər naziri olacaq. Əslən Dohukdan olan Veysinin adı Türkiyə xüsusi təyinatlılarının keçirdiyi əməliyyat zamanı yaxalanaraq Türkiyəyə gətirilən PKK üzvü Şemdin Sakıkın ifadələrində də yer alıb. Veysi həm də Məsud Bərzaninin uzaq qohumudur və 1992-ci ildə PKK terrorçuları və İraq Kürdüstan Demokrat Partiyasının silahlıları arasında baş verən döyüş zamanı yaralanıb. Qeyd edək ki, Şimali İraq Kürd Muxtariyyəti ABŞ-dakı təmsilçisi olan Cəlal Tələbaninin oğlu Kubat Tələbaninin də yeni hökumətdə nazir statusunda Neçirvan Bərzaninin sözçüsü olacağı da üzə çıxıb.

# Ərdoğan-Əhmədinejad görüşü

## *Ərdoğan: "Dəqiq bir şey söyləmək mümkün deyil"*

İranda səfərdə olan Türkiyə baş naziri Rəcəb Tayyib Ərdoğanın İran prezidenti Mahmud Əhmədinejadla görüşü başa çatıb.

Publika.Az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Tehranın Saadabad sarayında keçirilən görüşün əsas müzakirəsi mövzusu Suriya və nüvə enerjisi olub. Görüş zamanı baş nazir Ərdoğan Suriyada baş verənlərlə bağlı Türkiyənin mövqeyini Əhmədinejada çatdırıb. Suriyadan sonra ən önəmli məsələlərdən olan İranın nüvə enerjisi proqramı iki ölkə rəhbəri tərəfindən müzakirə olunub. Seuldakı Nüvə Enerjisi Zirvəsindən sonra Əhmədinejadla görüşən Türkiyə baş naziri zirvə görüşündə verilən qərarları onunla müzakirə edib.



Bundan başqa, iki ölkə rəhbəri terrorla mübariza məsələləri və regional məsələlərlə bağlı müzakirələr aparıb.

Görüşdən əvvəl Ərdoğan jurnalistlərə verdiyi açıqlamada 5+1 adlandırılan, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ABŞ, İngiltərə, Fransa, Rusiya və Çinlə bərabər Almaniyanın da təmsil olunduğu qrupla İran arasında görüşlərin İstanbulda keçirilməsi məsələsi ilə bağlı belə deyib: "Hələ bitən bir şey yoxdur. İranla Suriya məsələsində fərqli yanaşmalar olduğu aydındır. Yaxınlaşma əldə olunmasına gəldikdə, hələlik bu görüşləri keçirmədən dəqiq bir şey söyləmək mümkün deyil".

# Sətri xəbərlər

*Kürdüstan muxtariyyatının prezidenti cənab Məsud Barzani ABŞ-a səfər edərək prezident Obama və bir sıra dövlət rəsmiləri ilə görüşlər keçirmişdir.

*İraq Federativ respublikası və Küveyt arasında birgə Avia-şirkət yaradılacaq. Qeyd edək ki, İraq və Küveyt arasında münasibətlər 20 ilə yaxındır ki, dondurulmuşdur. Buna səbəb isə faşist Səddam Hüseynin 1991-ci ildə Küveyti işğal etməsidir.

*Məsud Barzani: Biz Suriya müxalifətinin silahlanmasına qarşıyıq.

*İsveç Parlamentinin üzvləri Türkiyəyə səfər edəcəklər. Onlar ölkədəki hüquq pozuntularını araşdıracaqlar.

*Türkiyə baş naziri Ərdoğan və XİN rəhbəri Davutoğlu Neçirvan Barzaniyə zəng edərək, onun yenidən baş nazir seçilməsi münasibəti ilə təbrik etmişlər.

*Suriya müxalifəti: Biz Suriya kürdlərinin tələblərindən ehtiyyat edirik. Bu gün onlar muxtariyyat elan ediblər, sabah isə müstəqilliklərini elan edəcəklər və Suriya parçalanacaq.

*Kürdüstan muxtariyyatının yeni hökuməti parlamentdə təsdiqlənib.

*Türkiyənin baş naziri Ərdoğan cənab Neçirvan Barzanini ölkəsinə səfər etməyə dəvət edib.

*Kərkükdən Türkiyəyə gedən neft borusu partladılıb. Kürdüstan İşçi Partiyası (PKK) bu partlayışı öz üzərinə götürüb.

*ABŞ-ın digər böyük neft şirkəti "Hess" Kürdüstan muxtariyyatı ilə müqavilə bağlayıb.

*Son 20 ildə Kürdüstanda 8 min insan minaya düşərək öz həyatını itirmişdir.

*Bağdad şəhərində Ərəb ölkələrinin sammiti keçirilmişdir. Sammitdə Kofi Annanın Suriyaya dair planı bəyənilmişdir və Suriyaya tövsiyyə edilmişdir.

*Rəssam Ömran Şeyxmusun çəkdiyi şəkillər Kazağıstanda sərgidə nümayiş olunub. Sərgidə Kazağısatan kürdlərinin rəhbəri K.Mirzoyev, Orta Asiya kürdlərinin ağsaqqalı Nadir Nadirov, müğənni Şıvan Pərvər və d. ziyalılar iştirak etmişlər.

*Stambulda "Suriyanın dostları" adlı konfrnas keçirilmişdir.

*Ötən həftə Türkiyənin böyük şəhərlərində 4 partlayış baş vermişdir. Ölən olmamışdır.

*Aprelin 4-də bütün dünya kürd xalqının ümumilli lideri Abdulla Öcalanın ad gününü qeyd etmişlər.

*Qatar hökuməti ölkədən qaçaq düşmüş Tarik Əl-Haşimini İraqa təhvil verməyəcək.

*BMT-nin İraqdakı xüsusi elçisi Kürdüstanda səfərdədir.

*Fransada keçirilən araşdırmalar onu göstərdi ki, ölkədə keçirilən prezident seçkilərində kürdlər Sərkozziyə yox, Sosial partiyanın nümayəndəsinə səs verəcəklər.

*Məşhur kürd rejissoru Yılmaz Güneyin 75 illik yubileyi Kürdüstanda və bir sıra Avropa dövlətlərində qeyd olundu və müxtəlif tədbirlər keçirildi.

*Qırğızıstanın Bişkek şəhərində Kamiz Şəddadinin hazırladığı Kürdcə-Rusca danışıq kitabçası çap olunub.

# Kürdüstan muxtariyyəti Türkiyəyə kömək etməyə hazırdır

Kürd muxtariyyəti kürd probleminin uğurla nizamlanması üçün Türkiyə ilə əməkdaşlıq etməyə hazırdır. "CNN Turk" telekanalına istinadən verdiyi məlumata görə, bunu Şimali İraqın kürd administrasiyasının rəhbəri Məsud Bərzani bildirib.

"Kürd muxtariyyəti kürd probleminin həlli üçün Türkiyə və Kürd Fəhlə Partiyası (PKK) arasında vasitəçi olmağa hazırdır", – Bərzani deyib. O həmçinin qeyd edib ki, kürd administrasiyası Türkiyə ərazisində terror aktlarının baş verməsi üçün PKK ilə məsləhətləşməyə hazırdır.

# Cemal Süreyya: sürgün, oğul zorbalığı və serroz

## *Cemal Süreyya haqqında*

**Qismət yazır...**

Dünyanın qəribə vaxtları olub, sən demə. Dünyaya adam gəlirmiş, amma heç kim onun doğum gününü yadda saxlamırmış. İnsan yadında saxlamadığı şeyi unuda bilərmi?!

O, 1931-ci ildə Ərzincanda doğulan 185 oğlan uşağından biri idi. Doğum günü yoxdur. O illərin Ərzincanında hamı bir nəfər kimi yoxsulluğa abunədir. Statistikaya görə həmin illərdə Türkiyənin ən çox siqaret və içki istifadəçisi oralarda olub.

Evin böyük uşağıdı. Anasının adı Gülbəyaz. Dörd yaşını belə xatırlayır: "Dörd yaşındaydım. Bir yaşındakı qardaşım Kamal ölmüşdü. Atam qollarının üstündəki bir yastıqda onun ölüsünü aparırdı. Sonra çoxlu adam. Ağır-ağır hərəkət edən adamlar. Qış."

4 yaşındakı bu sarsıntını çıxsaq, 6 yaşına qədər anası, atası, xalası, əmiləriylə birgə böyük bir ailədə normal bir uşaqlıq keçirib. Evin böyük uşağı olduğu üçün hamı onu əzizləyib, ərköyünlüyünə hamı dözüb. Evlərində törəyə görə kişilərə ayrı, qadınlara ayrı süfrə açılırmış. Onun yeri əmisi Memonun yanıdır. Ailənin soyadını davam etdirəcək ilk oğlan uşağı olduğu üçün hamı onu əzizləyir. Bacılarının, hətta bütün əmi uşaqlarının adını o qoyub.

Zəif, çəlimsiz bir uşaqdı. Ürəkkeçməsi olurmuş, anası bir dəqiqə də gözündən iraq qoymur onu. Gülbəyaz ona yeməyi güclə yedirir. İnadçıdı, südünü bir şərtlə içməyə razı olur: anası "Əsli və Kərəm" dastanını danışmalıdır...

* * *

1934-cü ildə 25-ci il kürd üsyanı ilə bağlı bir qanun qəbul edilir və 500 min adamın əlindən torpaqları alınaraq, Orta və Qərbi Anadoluya sürgün edilir. Onların da ailəsi bu 500 minin içindədir. Bacısı deyir ki, bu, bizə aid olmamalıydı. Bir gün vali əmimi çağırdı. Əmim dəliqanlı adam idi, adına "Dəmir yumruq Memo" deyirdilər. Vali o gün ona nə deyibsə, əmim onu yumruqlayıb. Nə oldusa, ondan sonra oldu, axşam qərar gəldi: üç gün ərzində buranı tərk edin!

Qatara miniblər. Yanlarında iki jandarma. Hara aparıldıqları bəlli deyil. Hamının canında ölüm qorxusu. Böyüklər uşaqları yuxuya verib, pıçıltıyla danışırlar. O, özünü yuxuluğa vurub, amma atası ilə əmisinin söhbətini eşidir. Atası deyir: " Yox, əşşi, öldürsələr, çoxdan öldürərdilər..."

* * *

Sürgünün altıncı ayında, hamilə anası uşağını düşürdür və qanaxmadan 23 yaşında dünyadan köçür. Onun 7 yaşı var, gözündən yaş çıxmaz. Anasından bir dənə də foto qalmayıb. Yaddaşındakı görüntünü isə xalası ilə səhv salır.

"Annen miydi ? Kesik saçı və açıs ensesi miydi teyzenin ? "

Sonralar sevdiyi hər qadında anasını axtardı. Sevdiyi hər qadın bir az anası oldu.



"Annem çok küçükken öldü,
Beni öp sonra doğur beni."

* * *

Bir gün məktəbdə dostlarından biriylə dalaşır, küsüşürlər. Araya kim girirsə, barışmır küsdüyü sinif yoldaşıyla. Sinif səs-küyün içində itib-batıb. Birdən müəllimin səsini eşidir: "Kürd damarı tutub ".

Olan olur. Üstünə elə bil dağlar çökür. Başını aşağı əyir. Deməli hamı bilirmiş...

Müəllim könlünü alır , amma başqa bir gün bir oğlan onun arxasınca "kürd" deyə qışqıranda dözə bilmir. Çantasını yerə vızıldadıb evə qaçır, otağına qapanır, səhərəcən ağlayır. Məktəbə getməmək qərarına gəlir."Sonra danışaram".

Qoluna girdim, oturduq, qarsonu çağırdım. "Bizə bir rakı, bəyaz pendir, pomidor".

Masaya dirsəkləndi. Sehrbazların saqqalına oxşayan, arada mavi rəngə boyatdırdığı saqqalını kəsmişdi, bığlarını da tamam təraş eləmişdi.

"Bığların işini bitirmisən".

"Həyəcanlandım, əllərim titrədi, kəsdim".

"Yanağında da dərin bir cızıq var".

"Rakı dedin?".

"Dedim, gəlir indi. Yeməyə nə istəyirsən?"

"Özün üçün de, mən istəmirəm."

"Bir yerdə yesək deyərəm".

Xətrimə dəyməmək üçün "Yaxşı, amma bir şərtlə sən yedizdirəcəksən" – dedi.

"Məmnuniyyətlə" – dedi. Keçən həftə də mən yedirtmişdim.

Stəkanına yarıya qədər rakı süzdüm, yarıda su tökdüm.

İkinci qurtumda əllərinin əsməsi azaldı. Gözəl üzündəki qara-sarı rənglər yerinə qayıtdı.

Onun davranışlarını incələyən dostumuz Halil İbrahim Bahar "Sənin vəziyyətin heç yaxşı deyil məncə" – dedi.

"Stres yüksəkliyi var məndə, təzyiq yüksəkliyi kimi" –dedi Cemo.

"Üç aydır arıqlayırsan dayanmadan".

"Sən də qəribə adamsan, doktor. Həm arıqla deyirsən, həm də tənqid edirsən" – bunu mən dedim.

"Bu başqa arıqlamaqdı, yaxşı deyil" –dedi Halil.

"Mən arıqlamağımdan narazı deyiləm".

"Heç yemək yemirsən axı".

"Ürəyim istəmir".

"Səni yeməyə qoymayan alkaqoldu".

"Mən alkaqolik deyiləm."

"Mən elə demədim, amma az qalıb sərhəddindəsən".

"Nə istəyirsən yeməyə? Yumurta-pomidor, ət qızartması, yumurtalı kartof?"

" Yumurtalı kartofu bəyənirəm, amma yumurta pomidor yaxşıdı indi".

Gələndən bəri ilk dəfə gülümsədi.

"Muzo kimə oxşayır ?" – dedi.

"Özünə" – dedim.

"Sən qarışma, həkim desin.Con Ueynə oxşamır? "

"Son vestern Muzo Buyrukçu".

"Son prins ola bilər, amma son çoban ola bilməz" – dedim.

"Amma oxşayırsan" – dedi və məni hirsləndirdiyi üçün sevindi. "Bu üzə, bu buruna, bu ağıza, bu baxışlara baxın".

"Rəsmən Alban sifəti var məndə" – dedim. "Mən səni hamının sevdiyi birinə oxşadacam."

"Kimə?"

"Çarlz Boyerə"

"Onun qədər yaraşıqlıyam ?"

"Ondan yaraşıqlısan. Sən də bəzən gözlərini onun kimi qısıb baxırsan."

"Təşəkkür edirəm" –dedi, rakıdan bir qurtum içdi, amma pendirə əl vurmadı, kəsdim, bir parça boşqabına qoydum. "Ye görək, dolama bizi, yaxşı ?"

"Yaxşı" –dedi və pendirdən yedi.

Telefona çağırdılar, Halil mənə dedi ki, bunun qaraciyəri tükənmək üzrədir, Edip kimi, Mətin kimi, Turqut kimi...

Qayıtdı. Halil əllərini dostyana onun çiyninə qoyub dilləndi :

"Məni yanlış anlama, səni tənqid etmək üçün demirəm, amma içkini atmalısan!".

"Mənim içkiylə problemim yoxdu axı..."

"Sənin bu əsməyin, sarsıntın içkinin qaraciyərə yüklənməyindən yaranan sarsıntıdır. Xəstəxanada yatsan, düzələr..."

"Xəstə deyiləm mən"

"Yadında, bir ara 5-6 ay içki içmədin, ancaq mineral su içdin, ayran içdin. Dəmir kimi olmuşdun".

"Onda zəhərlənmişdim."

"Özün bilərsən, amma həkim kimi deyirəm, mütləq qaraciyər testi elətdirməlisən".

"Soyutma, yeməyini, ye"-dedim.

Çörəyi batırıb bir tikə yedi və "Ləzzətlidir" – dedi.

Önər Ciravoğlu: "Sizi bir az solğun gördüm" –dedi.

"Halsızam. On gündür düz-əməlli yemək yemirəm. Səhv idi, indi başa düşürəm."

"Niyə yemədiniz?" – dedi Önər bəy, "Yemək unudularmı heç ?"

"Başım işə qarışıb, yadımdan çıxıb".

"Rakı yadından çıxmır amma..." – dedim.

"O unutdurmadı özünü..."

"Dərdin nədir?" – soruşdum yavaşca.

"Sıxılıram, çox sıxılıram, depressiyadayam."

"Sən məndən nəsə gizlədirsən." – dedim.

"Qolunu uzat, nəbzini yoxlayım" – bunu Halil dedi.

Qolunu uzatdı, doktor nəbzini yoxladı, "Taxikardiyan var" –dedi.

"Keçər, bir az da içim, keçər".

"Xəyal- filan görünür gözünə ?"

"Arada olur".

"Qulaqların necə, uğuldayır heç ?"

"Uğuldayır".

"Sən alkaqol krizi keçirdirsən, mütləq xəstəxanaya getməlisən! "

"Bir- iki gündür pisəm, Cağloğlu yoxuşunu güclə çıxıram".

"Onda həkimin dediyini eləmək lazımdı, xəstəxanaya getməliyik."

"Yaşayacağım qədər yaşadım, ölmək istəyirəm."

"Ölümdən danışmaq qadağandır! – dedim.

"Ölüm var amma" –dedi.

Sonra həkim getdi. Bir az söhbətləşdik. "Özünü qoru, nolar qoru! " –dedim, boynuna sarıldım.

"Səni yalnız qoymaram, biz qardaşıq, tale yoldaşıyıq. Türk ədəbiyyatında ilk dəfə bir naziri intihar etməyə səsləyən insanlarıq." – dedi. Gözləri dolmuşdu.

"Ölmə!" –dedim.

"Ölməyəcəm. 64 yaşına qədər yaşayacam" – dedi.

"64 çatanda on il də uzadarıq"

"Uzadarıq" – dedi və bu dəfə də o, məni qucaqlayıb yanaqlarımdan öpdü.

**ardı var**

www.netewe.com

# DÜNYA XƏRİTƏSİNDƏ YENİ DÖVLƏTLƏR-KÜRDÜSTAN VƏ ƏRƏB ŞİƏ CUMHURİYYƏTİ

## *Aida Bağırova: "İraqın cənubunda, İrana yaxın yerdə şiə dövlətinin yaranması ABŞ-ın mənafeyinə uyğun gəlmir"*

İraq bölünə bilər. Bu barədə anspress.com saytı Rusiyanın "İzvestiya" qəzetinə istinadən dərc olunan məqalədə qeyd olunur. Məqalədə deyilir ki, İraq müxalifətinin liderlərindən olan Müqtəda əs-Sədr yeni seçkilər keçirilməsi ilə bağlı çağırış edib. Eyni zamanda bugünlərdə "əl-İraqiyyə" bloku ölkənin nümayəndələr şurasının (parlamentin) iclaslarını boykot etmək niyyətini bəyan edib və Nazirlər Kabinetinə daxil olan partiyadaşlarını da bu addımı atmağa çağırıb.




Qəzet yazır ki, ABŞ "əl-İraqiyyə" blokunun lideri Əyad Əllavinin gələcəkdə bütün ölkəni olmasa da, heç olmazsa, ona neft hasil edən cənub rayonlarını nəzarətdə saxlamağı bacaran yeni Səddam Hüseyn kimi ümid bəsləyir. Məqalədə qeyd olunur ki, ehtimala əsasən Nuri əl-Malikinin hökuməti artıq amerikalıları qane etmir və onun yıxılması qərara alınıb. Bu baxımdan, Müqtəd əs-Sədr tərəfindən öz hüquqşünasları tərəfindən irəli sürülmüş vaxtından əvvəl parlament seçkiləri tələbi ABŞ-ın əməlli-başlı işinə yarayıb. "İzvestiya"nın yazdığına görə, plan baş tutsa, İraqın cənubunda Bəsrə paytaxt olmaqla müstəqil Ərəb Şiəistanı yaradıla bilər. Belə bir layihənin Səddam devrildikdən və ölkə işğal edildikdən dərhal sonra hazırlandığı iddia olunur.

İraqın bölünəcəyi ilə bağlı iddialar yeni deyil. Daha əvvəl Şimali İraqdakı kürd bölgəsinin müstəqil dövlət elan olunacağı ilə bağlı iddialar ortaya çıxıb. Ancaq bu plan hələ də reallaşmır. Baxmayaraq ki, Şimali İraq faktiki olaraq Bağdada tabe deyil, demək olar ki, müstəqil dövlət kimi fəaliyyət göstərir. Hətta bugünlərdə Ərbildəki kürd liderlər neft qiymətlərinin ödənilməsi ilə bağlı öhdəlikləri yerinə yetirmədiyini (!?) əsas göstərərək Bağdada neft nəqlini dayandırmışdılar.

Ancaq bütün bunlara baxmayaraq, bu günə qədər həm İraq daxilindəki güc mərkəzləri - şiə mərcalar, sünni aşirətlər - həm də həmçinin region dövlətləri, o cümlədən ABŞ İraqın sərhəd bütövlüyünün pozulmasına qarşı olduqlarını göstəriblər.

Yaxın Şərq üzrə mütəxəssis, BDU-nun dosenti Aida Bağırova Amerikanın İraqın sərhəd bütünlüyünün pozulmasına razı olduğunu inandırıcı saymır. "İzvestiya"nın məqaləsinin Rusiya siyasi dairələrinin İraq planları ilə bağlı ola biləcəyini deyən ekspertin fikrincə, hazırda bölgədəki durum İraqın parçalanması kimi ciddi bir hadisəyə hazır deyil. Bir müddət əvvəl bu tip mülahizələrin olduğunu xatırladan A.Bağırova İraq daxilində siyasi sabitliyin bərqərar olmadığını, hakimiyyət bölgüsü prosesinin davam etdiyini deyir: "İraqda problemlər sonadək çözülməyib. Ən əsası da odur ki, hakimiyyət bölgüsü tərəflərin hamısını qane etmir. İraqdakı qüvvələrin hər birinin arxasında xarici dövlətlər var".

Bəsrədə muxtariyyətin yaranması ilə bağlı iddiaların İraqın işğalının ilk illərinə təsadüf etdiyini qeyd edən ekspert hələ o zaman bu planın reallaşmadığını xatırladır: "İraqda daxili vəziyyətin həddən artıq gərgin olduğu 2005-2007-ci ilərdə Bəsrə məsələsi gündəmə gəlib. O zaman şimalda kürd muxtariyyəti və hətta kürdlərə müstəqillik məsələsi gündəmə gələndə İraq Yüksək İslami Şurası belə bir iddia ortaya atdı ki, əgər Kürdistan muxtariyyəti olacaqsa, biz də Bəsrə ətrafında muxtariyyət yaradacağıq. Ancaq bilindiyi kimi, həmin vaxt Amerika özü də ən yaxın müttəfiqi olan kürdlərə müstəqillik vermədi. Bununla da o zaman bu məsələ arxa plana keçdi".

Bəs birdən-birə yenidən "Bəsrə dövləti" ideyasının ortaya çıxmasının səbəbi nə ola bilər? A.Bağırovaya görə, İran ətrafında gərginlik artdıqca, həmçinin Suriyada rejim dəyişikliyi ehtimalları gücləndikcə, bölgə oyunçuları fəallaşır. Ekspertə görə, bu sırada Yaxın Şərqdə dünya ilə zidd siyasi xətt nümayiş etdirən Rusiyanın "izləri" daha qabarıq görünür: "İndi Amerika ordusu İraqdan çıxıb. Baxmayaraq ki, Amerika ilə İraq arasında müttəfiqlik sazişi var, amma İraqda Amerikanın nüfuzu aşağıdır. Müxtəlif dünya dövlətləri, o cümlədən Rusiya bölgədə fəallaşmağa çalışır. Çünki bildiyimiz kimi, Səddamdan sonra Rusiya İraqdan tamamilə çıxıb. İndi bu planın gündəmə gətirilməsi İraqın bölünməsi ilə bağlı maraqlı qüvvələrin olduğunun göstəricisidir. Amerika hökuməti yaxşı bilir ki, İraq parçalanması və cənubda İrana yaxın bir şiə dövlətinin yaranması onun maraqlarına cavab vermir".

***KƏNAN, musavat.com***

## Bəşər Əsəd PKK-ya qucaq açır

### *Kürd siyasətçi 2 min PKK-çını Suriyaya yerləşdiyini bildirib*

Suriyalı kürd siyasətçisi Salah Bədrəddin 2 min PKK-çının Suriyanın Afrin şəhərindəki Kurmen dağlarında yerləşdirildiyini söyləyib.

Simsar.az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, PKK-nın prezident Bəşər Əsədin çağırışı ilə bu ölkəyə gəldiyini vurğulayan Bədrəddin, Suriya kürdlərini silahlandırıldığını söyləyib. Bədrəddin sözlərini belə əsaslandırıb ki, PKK-çılar müxalifətçilərlə düşməndirlər, ona görə də, Əsədin təklifini qəbul ediblər. "Avestakurd" saytına açıqlama verən kürd siyasətçisi bildirib ki, artıq bəzi kürdlər Suriya kəşfiyyatında da təşkilatlanıblar.

32 ildir Suriyada siyasətlə məşğul olan Bədrəddin Suriyada yaşayan kürdlərin 90 faizinin Əsəd rejiminə nifrət etdiklərini, buna baxmayaraq, Bəşər Əsədin müxalifətə qarşı vuruşmaq üçün 2 min PKK-çını ölkəyə dəvət etdiyini söyləyib.

Bəşər Əsəd rejiminin 1999-cu ilə qədər PKK ilə ciddi əməkdaşlıq etdiyini deyən siyasətçi, Türkiyə və dünya ictimaiyyətinin təzyiqlərindən sonra bu əməkdaşlığın gizli şəkildə aparıldığını deyib.

## Avropa Birliyinin sanksiyasına məruz qalmış İranın bəzi dövlət rəsmilərinin adları açıqlanıb

Martın 23-də Belçikanın paytaxtı Brüssel şəhərində keçirilmiş Avropa Birliyi (AB) xarici işlər nazirlərinin toplantısında İranın 18 fiziki və hüquqi şəxsinə qarşı yeni sanksiya tətbiq edilib. APA-nın məlumatına görə, onların arasında İranın informasiya texnologiyaları və kommunikasiya naziri Rza Tağıpur, İRİB dövlət teleradiosunun rəhbəri İzzətulla Zərqami və İranın Ali Məhkəməsinin sədri, ayətullah Sadiq Amoli Laricaninin də adı var.

Qeyd edək ki, AB-nin son qərarı ilə sanksiyaya məruz qalmış İranın fiziki və hüquqi şəxslərinin sayı 79 nəfərə çatıb. Sanksiyaya görə, insan hüquqlarını kobud şəkildə pozmaqda günahlandırılan həmin şəxslərin AB ölkələrinə girişi qadağan edilib, eləcə də onların Avropadakı bank hesabları dondurulub.

Bundan əlavə, İrana telefon zənglərinə qulaq asmaq, internet-trafikə nəzarətə imkan verən qurğuların və proqramların satışı da qadağan edilib. Eyni zamanda bu il yanvarın 23-də əldə olunmuş razılaşmaya əsasən, İrandan neft və neft məhsullarının alınmasının məhdudlaşdırılması, İran Mərkəzi Bankının aktivlərinin dondurulması da tədbirlər paketində əksini tapıb. Onu da əlavə edək ki, AB-yə üzv ölkələr bu il iyulun 1-nə qədər İrandan neft almağı tam dayandırmalıdır.

## Türkiyə Yunanıstana nota verdi

Yunan mediasında Türkiyənin bu ölkəyə nota verdiyi barədə xəbərlər yayılıb. Rəsmi notada əsgərdən təmizlənilmiş statusa malik Samotraki adasında hərbi təlimlər keçirməməsi tələb olunur. Xəbərlərdə Türkiyənin rəsmi qurumları tərəfindən Yunanıstana ünvanlanan notada rəsmi Afinanın 1914-cü müqaviləsi və 1923-cü ildə imzalanmış Lozanna sazişinə görə Şərqi Egey adalarının silahsızlandırılmasıyla əlaqədar öhdəlikləri pozduğu vurğulanır. Afinada nəşr olunan "Ethnos" qəzeti Yunanıstan rəsmi dairələrinin başqa bir nota ilə Türkiyənin bu ittihamlarını rədd etdiyi yazılıb.

# Türkiyə İranın nüvə proqramına şərik olacaqmı?

## *Məhəmməd Rza Rahiminin təklifi siyasi gündəmi dəyişib*

"İranın nüvə proqramını Türkiyə ilə bölüşməyə hazır olduğunu bildirməsi sadəcə diqqəti yayındırmaq məqsədi daşıyır".

Bu sözləri Publika.Az-a açıqlamasında "Atlas" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu bildirib. İran prezidentinin birinci müavini Məhəmməd Rza Rahimi İranın böyük sərmayə yatırdığı nüvə proqramını Türkiyə ilə bölüşməyə hazır olduğunu bildirib.

Bu məsələyə münasibət bildirən Elxan Şahioğlu qeyd edib ki, Türkiyənin bu təklifi qəbul edəcəyinə, İranla nüvə proqramını bölüşəcəyinə inanmır:

"İran artıq dalana dirənib və rəsmi Tehran anlayır ki, ona qarşı təzyiqləri Türkiyənin vasitəçiliyi ilə səngitməyə çalışır. Aprel ayında İstanbulda İranın nüvə çalışmaları ilə bağlı beynəlxalq konfrans olacaq. Bu konfransa qədər gərginlikdən çıxmaq və vaxt udmaq lazımdır. İran ona görə bu təkliflə çıxış edir ki, onun nüvə silahı hazırlamasına cəmi bir neçə ayı qalıb və bu obyektlərin bağlanılmamasını istəyir. Hər şey İran hökumətinin iradəsindən asılıdır. Əgər İran dünya birliyinə sübut edə bilsə ki, bu proqram dinc məqsədlidir, əlbəttə ki, gərginlik qısa müddətdə aradan qalxacaq. Lakin İranın bu istəyi hiss olunmur. Nüvə çalışmaları davam etdikcə də, vəziyyət gərginləşir".

"Türkiyə bu proqrama qoşulsa, beynəlxalq ictimaiyyət bu məsələyə necə baxacaq" sualına Elxan Şahinoğlu belə cavab verib:

"İranda müharibə olsa, bu Türkiyənin də maraqlarına toxuna bilər. Çünki İran və Türkiyə arasında



enerji əməkdaşlığı var. Həmçinin Türkiyənin enerji çatışmazlıqları onu gələcəkdə nüvə enerjisi barədə düşünməyə vadar edə bilər. Lakin hazırda Türkiyənin bu proseslərdə vasitəçilikdən kənara çıxmaq fikrində olduğu hiss edilmir".

***Rüfət Əhmədzadə, Publika.Az***



Hüseyn Kürdoğlu

## GÖZÜMDƏN, KÖNLÜMDƏN QARABAĞ KEÇİR

Ay aman, gözümdən, könlümdən yenə
Qarabağ, Qarabağ, Qarabağ keçir!
Ziyarət, Işıqlı, Qırxqız, Mıxtökən,
Gözəl Gəlinqaya, Dəlidağ keçir.

Ahımız göylərə alovdan dirək,
Yerin məhşərinə neyləsin fələk.
Həsrət çırağıdır hər qaçqın ürək,
Hər keçən saatda yüz çıraq keçir.

Həkəri qəzəblə coşub-çağlayır,
Kimsəsiz çeşmələr camaq bağlayır.
Durna qatarı da el soraqlayır,
Qəmli bir avazla axaraq keçir.

Xəyal necə dönsün ötən çağlara,
Al qanlar tökülür ağ bulaqlara.
Qarqarın fəryadı düşür dağlara,
Gör daşdan, qayadan nə sayaq keçir.

Elə bil kor olub bütün yer üzü,
Udur gözgörəsi gecə gündüzü.
Vaqifin harayı çağırır bizi,
Düşmən güllələsindən ötüb sağ keçir.

Kimlər ayaqladı namusu, arı,
Dustaqdır Koroğlu, Nəbi diyarı.
Zakir haraylayır mərd oğulları,
Meydana çiynində yar-yaraq keçir.

On il tablamışıq böhtana, şərə,
Nə xeyri, xınzıra söz de min kərə.

Qoca Kürdoğlu da qabaq səngərə,
Əlində yenilməz bir bayraq keçir.

Ay aman, gözümdən, könlümdən yenə,
Qarabağ, Qarabağ, Qarabağ keçir.

## İSTİQLALIMIZ

Baş qoyub, can qıymışıq, qeyrətdir istiqlalımız,
Qanımızda kükrəmiş qüdrətdir istiqlalımız.

Hürriyyətsiz millətin tarixə düşməz surəti,
Şölənvər Od yurduna şöhrətdir istiqlalımız.

Verib öz varımızı, biz pay umurduq özgədən,
İndi öz yurdumuza sərvətdir istiqlalımız.

Müştərək bayraq ilə aldanmışıq qəflətdə biz,
Ərşə qalxır bayrağı dövlətdir istiqlalımız.

Fəxridir hər yığnağın öndərimiz dünya boyu,
Haqsevər dünya ilə ülfətdir istiqlalımız.

Həm cəfasın çəkmişik, həm də şəfasın görmüşük,
Min şükr, ruhumuza şəfqətdir istiqlalımız.

Hürriyyət qədri bilən mərdanəlik qurbanıdır,
Nakəsə, naxələfə nifrətdir istiqlalımız.

Sülhəgəlməz düşməni dizçökdürənlər nəsliyik,
Qantökən qansızlara dəhşətdir istiqlalımız.

Ta əzəl gündən bu torpaq sığnaq olmuş ellərə,
Hər dilə, hər millətə hörmətdir istiqlalımız.

Ən ləziz nemət budur, qardaş azadlıq neməti,
Bilməmişdik nə sayaq nemətdir istiqlalımız.

Susmasın Kürdoğlu bir dəm, küsməsin ondan qələm,
Şerinə, ilhamına ziynətdir istiqlalımız.

*9.11.2002*



Nəriman Əyyub

## AĞLAYIR

Yuxuda çıxmışdım ulu dağlara,
Gördüm dağlar mənə baxıb ağlayır.
Sarıyerdə olan o yaylaqlara,
Qəlbimi odlara yaxıb ağlayır.

Qəmgin görünürdü Dəlidağımız,
Qoçdaşın yanında o yaylağımız.
Sərin axan o Ceyran bulağımız,
Gözünə eynəyi taxıb ağlayır.

Yerində dayanıb İsa bulağı,
Yaman boşalıbdır həm solu-sağı.
Qalmayıb dağlarda moruğun ağı,
Qırxqız dağı şimşək çaxıb ağlayır.

Aydın Baba ilə gəzdiyim yerlər,
Oraya getməyə qalmayıb hünər.
Çəkilib ortaya tikanlı çəpər,
Səkli bulaq qəmgin axıb ağlayır.

Üzeyirə baxır şair Natəvan,
Vaqif tamam susub, o dili rəvan.
Baxdı həsrət ilə Milli Nəriman,
O Cıdır düzünə çıxıb ağlayır.

## OLMUR

Gecələr xəyalım uçur dağlara,
Dağları yadıma salmasam, olmur.
Yanan ürəyimi bükür ağlara,
Könlümün simini çalmasam, olmur.

Xəyalım dolanır Qırxqız dağını,
Xəlfəlidə olan şəkli bulağını.
Dərir dağlardakı Morux ağını,
Keçmiş xəyallara dalmasam, olmur.

Yuxuda gəzirəm Qoçdaş dağında,
Yuyunuram o Güyran bulağında.
Hərdən də o Laçın oylaqlarında,
O gözəl yerlərdə qalmasam, olmur.

Yuxudan oyatmaq istəmir ürək,
Xəyallara dalmaq, de, kimə gərək.
Qarabağı almasam haramdı çörək,
Mütləq o yerləri almasam, olmur.

Cavan çağlarımda gəzdiyim yerlər,
Gəzdikcə dağlarda görürdüm nələr.
Dəlidağ, Keytidə ceyranlar mələr,
Nərimanam, zəfərlər çalmasam, olmur.

***24.07.2010.***



TARİYEL KÜSKÜN

## YAŞADAQ BİZ BU MİLLƏTİN QÜDRƏTİN

Zəmanənin üzü dönsün, əyilsin,
Yatanlarım yuxulardan ayılsın.
Kürd qeyrəti hər tərəfə yayılsın,
Xatırlayaq babaların qeyrətin,
Yaşadaq biz bu millətin qüdrətin.
Çıxarıbdı çox gədələr yadından,
Utanc duyur babasının adından.
Fərqi yoxdu saçı kısık kadından,
Geyinibdi dar şalvarı əyninə,
Yeridibdi axmaqlığı beyninə.
Çoxalıbdı özgə adla yaşıyan,
Gədəliyi şərəf kimi daşıyan.
Vicdanını, qeyrətini boşuyan,
Qürurlanır bu adından, sanından,
Qeyrət axmır damardakı qanından.
Yıxılıblar kişiliyin atından,
Dırnaq qopub, ayrılıbdı etindən.
Xəbəri yox keçmişindən, zatından,
Əcdad bilir çaqalları, tülkünü,
Unudubdu öz əslini, kökünü.
Küskün, sözü deməlisən qanana,
Vicdanının keşiyində durana.
Haram olsun öz əslini danana,
Çox çətindi beqeyrətdən danışmaq,
Mümkün deyil şərəfsizlə barışmaq.

## A DÜNYA

Vicdan "valyuta"ya satıldı getdi,
Abır yoxa çıxdı, atıldı getdi,
Arlı da, arsıza qatıldı getdi,
Sən tərsə dolandın, dolan, a dünya,
Səni tarimar ol, talan, a dünya.
Namərd şeş-beş atır, zərin oynadır,
Arvad çəpik çalır, ərin oynadır,
Dizin çırmalayır, belin oynadır,
Kül olub göylərə, ələn a dünya,
Səni tarimar ol, talan , a dünya.
Analar körpəsin çölə atdılar,
Qardaşlar bacısın pula satdılar,
Halal dünyamıza haram qatdılar,
Dərdimə, sərimə bələn, a dünya,
Səni tarimar ol, talan, a dünya.
Oğul var, atanın qanını içir,
Anasın öldürür, üstündən keçir,
Allaha əyilmir, şeytana qaçır,
Şeytanın qanına göllən, a dünya,
Səni tarimar ol, talan, a dünya.
Tanrım görmürsənmi dəhşət zülümü?
Qudurğan, qan içən saymır ölümü.
Bəd işlər var, Vallah bükür belimi,
Allahdan qorxmursan?-dillən, a dünya,
Səni tarimar ol, talan, a dünya.
Pisliyi özünə peşə seçirlər,
"Sexlər"yaradırlar,"torba"tikillər,
Məzluma, yazığa "libas" biçillər,
Məzlumun oduna, qalan, a dünya,
Səni tarimar ol, talan, a dühya.
Ay insan, bu yolla cənnətin olmaz,
Allah dərgahıda qismətin olmaz,
Sən ölüb getsən də, rəhmətin oimaz,
Sən ölən deyilsən, ölən, a dünya,
Səni tarimar ol, talan, a dünya.
Küskünü "Aqil" yox fərsiz sayıllar,
Şər-böhtan deyirlər, haqqı danıllar,
Düzü düz demillər, yalan yayıllar,
Əzəldən yalansan, yalan, a dünya,
Səni tarimar ol, talan, a dünya.

## YANAR GÜLÜM

O gözlərin, alovundan
Daşda dözməz, yanar gülüm.
Bircə anlıq belə baxsan,
Qan bədəndə donar gülüm.
Salma məni dildən-dilə,
Baxma belə, dönüm külə.
Sən səmaya baxsan elə,
Günəş göydə sönər gülüm.
Göylər titrər baxışından,
Dərya daşar yağışından,
Şimşək çaxar çaxışından,
Bulud yerə yenər gülüm.
Nolar, belə baxma birdə,
Qoyma məni, qoyma sirdə.
Belə sınmaq olmaz Kürdə,
Millət məni qınar gülüm.
Baxışından Küskün ölsə,
Haq dünyaya dərdlə dönsə.
Bunu Uca Tanrı bilsə,
Səni cəllad sanar gülüm.



Barî yê Bala

## Î DÎ BESE

Ewrên tarî , ne hurmijin, ne gurujin, î dî bese,
Gul-sosina ne rencî nin, ne zêrî nin, î dî bese,
Tavî , teyrok, mekin girmî n, nekin ringî n, derbazbin zû ,
Kurdistane birî ndare, ne êşî nin, î dî bese.

Bayê şamê, hêdî -hêdî , neke gazî , hewar, dengî ,
Dotê Kurdan unda kirine bi hezaran xortêd bengî ,
Dicle, Firat, bikewgirin, bilû vî nin hezar rengî ,
Kurdistane şî nê da ye, pejmû r nekin, î dî bese.

Berfa sipî , zef nebare, neke tofan, pir hewirze,
Kurdên mine bê sitarin dî sa neyne xemên teze,
Bombên jehrê, hî vî dikim, nav Helebcê peya nebin,
Kurdistana min cinnete, ne şewtî nin, î dî bese.

Tanqê giran, teyarê xof, nekin gurî n, him teqe-req,
Bahar hatiye, gul vebû ne, hû n nerêjin xwî na neheq,
Gur Seddamê î car hişk be, wê eyan be, kî ye neheq,
Kurdistana min egî te, feqî r nekin, î dî bese.

## HESRETKÊŞE TE ME, WELAT

Dinalim, dizêrim, bê te, welat,
Bê piştim, bê çarim, dû rim, welat.
Sêfî lim, sêwî me, bê par, bê war,
Dêyî , ez ewledê te me, welat.

Xî ret, şeref, zarê minî , welat,
Sî û sitar, edla minî , welat.
Wek te bilind tu erş tune,
Gulî , ez gulvanê te me, welat.

Hêlî na germ, qubla minî , welat,
Şeref, xemil, rewşa minî , welat,
Zemzemî , teverikî , boy tew Kurda,
Timê hesretkêşê te me, welat.

Rewî me, digerim, nawî nim te,
Direvim, dibezim, naghî jim te,
Xalî nabin çavêm av û hêsra,
Dî lim, dilêşim, tengezarê te.

Xwezil min bask weda esmanê te,
Aza bimeşyama ser axa te.
Xwî nxwar hemêza te zû derketa,
Ewil pî rozkira min cejna te.

## RİCA DİKİM

Tijî dibî , vala dibî , tim bê qirar,
Geh dikenî , geh digrî y, tu bê î tbar.
Xezna kû rî , pêş te çine behr-okêan,
Hemêza te tew cinnete, em lê mêvan.
Gelek kesa xwastin ji te bistî nin bac,
Feqet, ew man him bê sitar, him bê î lac.
Lawê te me, ne agirim, ne jî tofan,
Ne pirî skim, ne şipû kim, ne jî baran.
Xuluqandim, ne da min ra rusqet, ziman,
Navêm bû Kurd, him bû m sêfî l, him bû m dêran.
Reca dikim, î car were tu min rehmê,
Destû r bide, ez jî derêm keder, zulmê.
Belkî şa bin, piçû k, mezin, qelbên wêran,
Neyar korbin, aza bibe tew Kurdistan.

## XWEZİL ROKÊ BİANİYANA MİNRA MİZGÎN

Xwezil rokê bianiyana min ra mizgî n,
Bigotana: - Aza bû ye Kurdistana teye rengî n.
Dê û dota êxistine cilê şî nê,
Melle nadin î dî terqî n û yasî nê.

Neyarê hur teyax nekir, revî paşda,
Zindanê sar, qersên tarî neman wir da.
Ax seqirî , çû hejarî , belengazî ,
Esman vebû , xemilî ne bestê tezî .

Direqisin pî rê sed sal, keçên heznî ,
Dengê Şivî n hingavtî ye çî ya-banî .
Sêfî l-sexî r kom-kom diçin dibistana,
Kurd jî bû ye xweyê dî rok û dî wana.

Kalê xî ret, xortê cindî , bavê lawhez,
Gund-bajara tew çêdikin bi xar û bez.
Destê cotkar dî sa çû ye ser maça cot,
Xwî n vereşî ya kesê welat boy zik firot.

Min bikira eyda mezin bi dilê şa,
Mêvanê min bihatana hemû qulba.
Evdê xêrxaz bicivyana holika min,
Binbar, pî roz, bikirana eyd roja min.

A hê minê bizanbû ya ez merî me,
Ezî bi reh, ezî bi war ne mirî me.
Kesê bê ax dara pû çe nagre bin erd,
Emrê şirî n boy wî dibe keser û derd.

# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən saylarımızda**

Bu faktlardan aydın olur ki, Məlik Şəmsəddinin dövrü Bidlis əmirliyi üçün ən yüksək dövr olmuşdur. Buna görə də onun ölüm hadisəsi istər mənbələrdə və istərsə də tədqiqat əsərlərində tarixçilərin diqqət mərkəzində durmuşdur.

F.Metsopski onun öldürülməsini geniş izahatla qeyd edərək yazır: «Qara Yusifin oğlu İskəndər 1425-ci ildə Bakeşə (Bidlisə–M.Ş.) və Əxlata gələrək Əxlat qalasını öz yeznəsi Əmir Şəmsəddindən tələb etdi. Bu tələb rədd olduğu üçün İskəndər onun öldürülməsini əmr etdi» (41, 27).

«Şərəfnamə» də Əmir Şəmsəddinin ölümü belə təsvir olunur. «Əmir Şəmsəddinin arvadı türkmən qızı olduğu üçün at minməyi və çovqan oynatmağı çox sevirdi. Əmir bu işin kürdlər arasında eyib olduğunu dəfələrlə ona tövsiyyə etmiş, lakin qadın buna əhəmiyyət verməməşdir Odur ki, qəzəblənmiş əmir vurub qadınının bir dişini sındırmışdı. Qadın sınmış dişini qardışı İskəndərə göndərmiş və dəli İskəndər gəlib Əmir Şəmsəddini öldürmüşdür» (76, 380).

Müəllif bu hadisəni bir rəvayət kimi qeyd edərək göstərir ki, Əmir Kəbirin (Əmir Şəmsəddinin) ölümünə əsas səbəb onun Şahrux sarayına yaxınlaşması olmuşdur (76, 381; 24, 149).

Dövrünün ictimai ziddiyyətlərini nəzərə aldıqda müəllifin son fikri ilə razılaşmaq olar, çünki öz əmirliyinin təhlükəsizliyini qorumaq məqsədilə Qaraqoyunlu hökuməti ilə ittifaq bağlayan Əmir Şəmsəddin, o hökumətin (Qaraqoyunlu hökumətinin) zəiflədiyi bir zamanda, onu başqa bir qüvvətli hökumətə tabe olmadan öz müstəqilliyini qoruyub saxlaya bilməzdi. Beləliklə, Əmir Şəmsəddinin Şahrux sarayına yaxınlaşması dövrün xarakter və tələbinə tamamilə uyğun idi. Lakin onun Qaraqoyunlu sülaləsinə düşmən olan Şahruxa yaxınlaşması İskəndəri qəzəbləndirdi və nəticə etibarilə Əmir Şəmsəddinin ölümünə səbəb oldu.

Bidlis əmirliyinin istər Hacı Şərəf və istərsə də onun xələfi Əmir Şəmsəddin dövrünü tədqiq edən bəzi tədqiqatçılar hadisələri mənbələr əsasında deyil, onu təhrif olunmuş formada izah edirlər:

«Şərəfnamə» də deyilir ki: «Əmir Teymurun Bidlis Əmiri Hacı Şərəfə verdiyi fərman 1533-cü ilədək qalmışdı. Lakin baş verən hərc-mərclik nəticəsində Şərəf xan öldürüldü və oğlu Əmir Şəmsəddin xan43 İran ölkəsinə getdi. Bu zaman başqa şahların fərmanları ilə birlikdə, Teymurləngin verdiyi fərman da itmişdir (76, 373).

Alman tədqiqatçısı Fric «Şərəfnamə» yə istinad etsə də hadisəni düzgün tədqiq etmədən belə yazır: «Hacı Şərəfin ölümündən sonra oğlu Əmir Şəmsəddin Bidlis əmiri oldu» (97, 336). «Şərəfnamə» də onun İrana getməsi yazılırsa da, qayıtması haqqında bir qeyd yoxdur (97, 336).

Fric hətta hadisələrin tarixinə də düzgün fikir verməmişdir. O, XV əsrin əvvəllərindəki Bidlis əmiri Hacı Şərəf ilə oğlu Əmir Şəmsəddini XVI əsrin ortalarındakı Bidlis əmiri Şərəf xan və onun oğlu Şəmsəddin xanla qarışdırmışdır. Görünür ki, Fricin bu səhvi adların oxşarlığından irəli gəlmişdir. Çünki Kürdlərdə və xüsusilə haqqında bəhs etdiyimiz Ruzəkilər sülaləsində nəvəni babasının adı ilə adlandırmaq ənənəvi bir şəkil almışdı. Fric bu məsələyə diqqət etmədiyi üçün «Şərəfnamə» dəki məlumata şübhəli yanaşmışdır.

Biz həmin hadisənin izahını Məhəmməd Əmin Zəkinin «Tarix əl-Kürd və Kürdüstan» adlı əsərində də Fricin əsərində olduğu kimi müşahidə edirik. Bunun da səbəbi məlumdur. Məhəmməd Əmin Zəki öz tədqiqat işində Kürd tarixinin yeganə mənbəyi olan «Şərəfnamə» dən deyil, Fricin «Şərəfnamə» nin izahatı tərzində yazdığı «Kürdlər» adlı əsərindən əsasən çox istifadə etmişdir. Beləliklə, biz də əldə olan mənbəyə istinad edərək, hər iki müəllifin yuxarıda izah etdiyimiz nöqteyi-nəzərlərini tamamilə rədd edirik.

Bidlis əmirliyinin tarixi ilə əlaqədar olaraq düzgün tədqiq edilməyən hadisələrdən biri də Teymurləngin ölümündün sonra (1405) Qaraqoyunlu Qara Yusifin Bidlis əmirliyinə gəlməsi və öz qızını əmir Şəmsəddinə ərə verməsindən ibarətdir. Bu haqda «İslam ensiklopediyası» nda «Kürdlər» adlı məqalənin müəllifi V.F.Minorski yazır:

«Qara Yusif Kürdüstana gəldi, Əmir Şəmsəddin qızını ona verməklə, öz hakimiyyətini möhkəmləndirdi» (132, 1206).

Rəşid Yasəmi də öz əsərində (69, 202-203) həmin fikri təkrar edir. Çünki Yasəmi əsərini yazarkən V.F.Minorskinin həmin məqaləsinə çox istinad etmişdir.

Məhəmməd Əmin Zəki də əsərinin (117, 174) birinci cildində həmin hadisəni yuxarıda adlarını çəkdiyimiz tədqiqatçılar kimi göstərmişdir. Lakin o, «Tarix əl-Kürd və Kürdüstan» adlı əsərinin ikinci cildi kimi qeyd etdiyi «Tarixəddüvəl və imarət əl-Kürdiyyə fiəl-əhdəl-islami» adlı əsərini yazarkən əvvəlki səhvini təkrar etməmiş və mənbələr əsasında düzgün vermişdir.

Biz həmin hadisədən bəhs edərkən qeyd etdik ki, F. Metsopski, Xondəmir və Bidlisinin (41, 27; 64, 568; 76, 376) əsərləri göstərildiyi kimi, Əmir Şəmsəddin deyil, Qara Yusif Qaraqoyunlu öz qızını ona ərə verərək, ondan yardım almışdır. Beləliklə, mənbələrə istinadən demək olar ki, V.F.Minorski, R.Yasəmi və Əmin Zəkinin əsərlərində həmin hadisə təhrif olunmuş tərzdə izah edilmişdir.

Əmir Şəmsəddin öldükdən sonra oğlu Əmir Şərəf hökmdar olur (1425-1428). Lakin o, ləyaqətsiz və bacarıqsız bir şəxs idi. «Şərəfnamə» də qeyd edildiyi kimi, o, gecələr hamam tulanbarında, gündüzlər isə dəmir qəfəsdə oturub deyərmiş ki, erkək kəkliyin yeri buradır (76, 381). Bidlisi yazır: «O, ömrünü heçə çıxartmış və tarixdə qeyd ediləsi bir iş görməmişdir (76, 381).

Əmir Şərəf öldüyü zaman oğlu Şəmsəddin hələ uşaq idi. Bidlisi qeyd edir ki, «Əmirliyi onun (Şəmsəddinin) anası Şahım xatun idarə edirdi» (76, 382).

Fric Şahım xatunu, Şah xatun kimi qeyd edir (97, 337). Məhəmməd Əmin Zəki isə düzgün olmayaraq, onu Şəmsəddinin qadını Şah xatun deyə göstərmişdir (117, 238).

Hər iki müəllif «Şərəfnamə»yə istinad etdiklərini göstərirlər. Halbuki «Şərəfnamə»nin istər Peterburq və istərsə də Qahirə nəşrlərində Şəmsəddinin anası Şahım xatun yazmışdır (76, 382).

Buna görə də biz həm Fricin, həm də Məhəmməd Əmin Zəkinin qadının adı və Şəmsəddinin arvadı olması haqqındakı fikirlərini əsasən düzgün hesab etmirik.

Nəhayət, Şahım xatun Bidlis əmirliyini yaxşı idarə edə bilmədiyindən Ruzəki tayfası ondan narazı qaldı. Beləliklə də 1430-cu ildə həmin əmirlik Ruzəki zadəganları arasında bölündü. Əxlat nahiyyəsini Mir Məhəmməd ağa Nəsirəddin, Mum nahiyyəsini isə Əbdürrəhman ağa Kvalisi ələ keçirtdilər. 1432-ci ildə Şahım xatun öldü. Bidlis vilayətində bir zaman hərc-mərclik davam etdi. Lakin Əmir Şəmsəddin yaşa doldu və əmirlik vəzifəsini öz ixtiyarına götürdü (1432-1436). O, az vaxt ərzində bir çox müvəffəqiyyətlər qazandı. «Şərəfnamə» dəki məlumata görə Əmir Şəmsəddin bir sıra müvəffəqiyyətlər qazandığı üçün «sarsılmaz Əmir Şəmsəddin» ləqəbi almışdı (76, 386-387). O, Bidlisdə bir neçə ictimai müəssisələr tikdirmişdir.

Əmir Şəmsəddindən sonra Bidlis hökmdarı oğlu Əmir İbrahim (1436-1438) olmuşdur. Onun dövrü həm az olmuş, həm də sakitliklə keçmişdir. Əmir İbrahim öldükdən sonra oğlu Hacı Məhəmməd onu əvəz etmişdir (1438-1462). Əmir Hacı Məhəmməd ağıllı və siyasətçi bir hökmdar olmuşdur. O, öz əmirliyini idarə etmək işində hətta qonşu dövlətlərin hörmət və nüfuzundan da istifadə edirdi. Əmir Hacı Məhəmməd Bidlisdəki bir çox ictimai binaların banisidir.

Əmir Hacı Məhəmməd ölümündan sonra oğlu İbrahimin Bidlis hökmdarı olmasını vəsiyyət etmişdi. Əmir İbrahimin əmirlik dövrü (1462-1471) sakit keçməmişdi, 1453-cü ildə Diyarbəkir və Ermənistanda hökmdarlıq edən Həsən bəy Bayənduri (Uzun Həsən) 1468-ci ildə Qaraqoyunluları məğlub edərək bir sıra Kürd əmirliklərini də öz itaəti altına aldı. Uzun Həsən xüsusilə Qaraqoyunlu Qara Yusif ilə qohumluq və dostluq ittifaqı yaradan Bidlis əmirliyinə qarşı düşmən münasibət bəslədi.

Əbubəkr Tehrani yazır ki, 1468-1469-cu illərdə Kürdüstanın bir çox şəhər və qalaları Uzun Həsən tərəfindən alındı. 5 min atlı Bidlis vilayətini mühasirə etməyə göndərildi (44, 543). Bidlisi göstərir ki, Uzun Həsən Bidlis qalasını işğal etmək üçün Bijənoğlu Süleyman bəyi məmur təyin etdi. O, qalanı üç il mühasirədə saxladı (76, 388; 103, 414). Mühasirə uzun zaman davam etdiyi üçün qala müdafiəçilərinin vəziyyəti çətinləşmiş və müxtəlif xəstəliklər nəticəsində çoxlu adam məhv olmuşdur. «Şərəfnamə»də deyildiyinə görə qala müdafiəçilərindən




yalnız 7 nəfəri Əmir İbrahim ilə birlikdə diri qalmışdır (76, 389; 103, 414).

Mənbələrdəki məlumatdan görünür ki, Ağqoyunlu ordusu Bidlis vuruşmasında şiddətli müqavimətə rast gəlmişdir. Əbubəkir Tehrani yazır: « 1471-ci ildə Sahibqran (Uzun Həsən)… Süleyman bəy Purnak (Bijanoğlu) və Bayandur bəyin başçılığı ilə Bidlis üzərinə yenidən iki min nəfərlik qoşun göndərdi (44, 559). Bidlisdə yaşayan müxtəlif kürd tayfalarının Ağqoyunlulara qarşı inadlı vuruşmalarını Süleyman bəyin məddahı şair Mahmudoğlu nəzmə çəkərək yazır:

«Şaha! Ol Bidlisin Kürdü müti olmaz Süleymana;
Əzəldən qalma adətdir, çalışırlar ocaq45 üstə» (76, 389).

Uzun sürən müharibə Bidlis əmirliyini hər cəhətdən zəif saldı və buna görə də Əmir İbrahim sülh təklif etdi. Bidlisi qeyd edir ki, sülh təklifinə razılıq əlaməti olaraq Həsən bəy öz üzüyünü göndərdi (76, 389). Lakin Əbubəkir Tehrani yazır ki, Bidlisin böyük əmirləri mühasirəyə alındıqları zaman Bidlis Əmiri İbrahim bəy öz anası ilə müavinini xahiş etmək üçün Uzun Həsənin yanına göndərdi, Sahibqran onu əfv etdi və ordunu geri çəkərək Muşu mühasirəyə aldı (44, 54).

Bizə görə, hər iki müəllif Bidlis vuruşması haqqındakı məlumatı düzgün qeyd etmişlər. Lakin burada olan bu az fərq əsasən «Şərəfnamə» müəllifinin milli təəssübkarlığından irəli gəlmişdir.

Nəhayət, hər iki tərəf sülhə razılıq verdi və Əmir İbrahim Təbrizdə Uzun Həsənin yanına getdi. «Şərəfnamə» dəki məlumata görə Əmir İbrahim ilə birlikdə Ruzəki tayfasının adlı-sanlı şəxslərindən 12 nəfəri də Azərbaycana gəlmişdi (76, 390).

Uzun Həsən Əmir İbrahimi Qum nahiyəsinə göndərərək, zahirən ona münasib bir vəzifə vermişdi. Lakin əslində əmir girov saxlanılmışdı, çünki Bidlis qalası alındıqdan sonra da Bidlis əmirliyində Ağqoyunlulara qarşı Kürdlərin mübarizəsi davam edirdi. Hətta Bidlis Kürdlərindən bir dəstəsi Muş əmiri Həsənəli bəyə kömək etmək məqsədilə Muş nahiyəsinə doğru hərəkət etmişdilər. Əbubəkr Tehrani yazır ki: «Bu xəbəri eşidən Sahibqran Sofi Xəlil Bektaşini göndərərək onların hamısını əsir aldırdı… və gözlərini çıxartdırdı» (44, 463).

Beləliklə, 1471-ci ildən 1498-ci ilədək Bidlis vilayəti Ağqoyunlu hökumətinin ixtiyarında qaldı. Həmin dövrdə Ruzəki tayfası Ağqoyunlu hökmranlığına qarşı dəfələrlə üsyan qaldırdısa da, lakin sonda məğlub oldu (76, 390).

1477-ci ildə Uzun Həsən öldü. Bununla əlaqədar Ağqoyunlu hökuməti zəifləməyə başladı. Bu vəziyyətdən istifadə edən Bidlis Kürdləri Ağqoyunlulara tabe olmaq istəmədilər. Bidlisi yazır ki, Həsən bəyin oğlu Yaqub bəy Qum şəhərində Əmir İbrahimi edam etdirdi (76, 390). Yaqub bəy belə hesab edirdi ki, Əmir İbrahimi edam etdirməklə Bidlis Kürdlərini susdura biləcəkdir. Lakin belə olmadı və mübarizə daha da şiddətləndi.

**(Ardı gələn sayımızda)**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

***Zaman keçdikcə, Ulu Öndər, Böyük Heydər Əliyev siyasətinin dərinliyini daha aydın görmək olur. Dünyanın bir sıra ölkələrində, eləcə də qardaş Türkiyənin indiki ictimai-siyasi durumuna baxdıqda, Azərbaycandakı ictimai-siyasi vəziyyət həsəd aparıcıdır. Mənə elə gəlir ki, Türkiyə rəhbərliyi hörmətli prezidentimiz İlham Əliyev cənablarının siyasətini Türkiyəyə tədbiq etsələr, çox guman ki, 12 saat çəkməz illərdən bəri aparılan qarşıdurmalara son verilə bilər.***

Bir insan kimi dünyada, eləcə də Türkiyədə qardaş xalqların tale yüklü məsələləri, hamı kimi məni də narahat etməyə bilməz. Hər bir kürd insanı kimi kürdlər yaşayan bölgələrdə baş verən proseslər mənim də diqqətimdədir. Hər bir kürd, türk insanının sevinci də, kədəri də mənimdir. Təsəvvür edin, Azərbaycanda milli azadlıq hərəkatı baş qaldıranda burda yaşayan xalqların çəkdiyi əzablar xalqın azadlıq istəyini söndürə bilmədi. Baxmayaraq ki, bu müsibətlər ona kənardan gətirilmişdi. Öncə milli zəmində ixtişaşlar törədildi. Xarici qüvvələrin əli ilə Azərbaycan uzun və sonu hələ də görünməyən Qarabağ müharibəsinə sövq edildi. Etnik azlıqlar ilə Azərbaycan türkü arasında düşmənçilik toxumları səpməyə çalışdılar və məqsədlərinə qismən də olsa, çatdılar. Nəticə olaraq, Qərbi Azərbaycandan 300 mindən artıq soydaşımız doğma yurd-yuvalarından qaçqın salındı. Hazırda, Qarabağ və digər 8 rayonumuz Ermənistanın işğalı altındadır.

Təsəvvür edin, əgər Ulu Öndər, Heydər Əliyev hakimiyyətə vaxtında gəlməsəydi, atəşkəs müqaviləsi bağlanmasayıdı, ermənilər Azərbaycan torpaqlarına olan təcavüzünü bir az da genişləndirərək, özlərinin dediyi kimi, Gənsəbasar da daxil olmaqla, Kürə qədər işğal edə bilərdi. Bir anlığa təsəvvür edin, Gəncəbasarın köçkünləri, erməniyə girov düşənləri, Gürcüstana, Rusiyaya qaçanları, malı-mülkü bir anın içində əlindən çıxaraq girov, qaçqın-köçkün halına düşən xalqın durumu necə ola bilərdi? Onsuz da problemlər içində yaşayan Borçalı mahalındakı soydaşlarımızın durumunu, Türkiyənin Azərbaycanla və türk dünyası ilə əlaqəsinin nəticəsini bir anlıq düşünmək kifayətdir.

Ermənilərin əlinə düşəcək Mingəçevir su anbarının suyu buraxılsaydı, bir an başımıza gələcək faciələrin böyüklüyünü düşünmək lazımdır. Kür çayı hövzəsində olan şəhər, rayon və kəndlərimizin əhalisinin durumunu göz önünə gətirmək kifayətdir.

Gəncəbasarın işğalı, Avropa qapılarının, Avropa bazarının üzümüzə bağlanması demək olardı. Biz məcburi yenə də keçmiş "ağamız" olan rus çinovniklərinin boyunduruğu artına yalvararaq, xahiş edərək keçməli idik.

Hələ mən Əlikram Hümmətovun "Talış-Muğan" Respublikasından, onun gələsəkdə İran İslam Respublikasına birləşməsindən, Sürət Hüseynovun "xanlığından", şimaldan rusların ləzgilərin "Sabval" təşkilatının əli ilə Siyəzənə qədər ərazi iddiasından, Balakən, Qax, Qəbələ kimi strateji bölgələrə göz tikənlərdən danışmıram.



Dünya dövlətlərinin rəhbərləri humanistliyi, uzaqgörənliyi, əfv etməyi, bağışlamağı Azərbaycanın cavan prezidenti İlham Əliyev cənablarından öyrənməlidirlər. İlham Əliyev cənabları neçə-neçə ömürlük həbsə məhkum olunmuş insanları əfv etdi, ümidsiz ailələri sevindirdi və Azərbaycandakı münaqişə ocaqlarını uzaqgörən siyasəti ilə aradan götürdü. İlham Əliyev cənablarının humanist siyasəti Türkiyə, İran, Suriya kim ölkələrin dövlət rəhbərlərinə örnək olmalıdır.

***"Bakı-Tibilisi-Ceyhan" əsrin dünyəvi sülh müqaviləsi***

Bizi bütün bu bəlalardan Heydər Əliyevin uzaqgörən siyasəti qurtardı. Onun uzaqgörən siyasəti, həyata keçirdiyi dünyəvi layihələr, böyük dövlətlər, beynəlxalq birliklər, təşkilatlar tərəfindən dəstəkləndi, ölkədə siyasi sabitlik yarandı və dövlətimiz quruculuq yoluna qədəm qoydu. Son illər əhalinin ölkəmizin rifahı yaxşılaşdı, yüzlərlə parklar salındı, yollar abadlaşdırıldı, əfsanəvi körpülər tikildi, yeni kəndlər, qəsəbələr inşa edildi.

Hörmətli prezidentimiz, İlham Əliyev cənablarının operativ təşkilatçılığı sayəsində "Bakı-Tibilisi-Ceyhan" neft kəməri, Bakı-Ərzurum qaz kəməri vaxtında səmərəli çəkilməsi sayəsində, yüzlərlə ölkələri Azərbaycana bağladı. Bu inkişafa görə, indi dünya dövlətləri istəsələr də, istəməsələr də bizi dəstəkləməkdədirlər.

Dünya gör-götür dünyasıdır. Türkiyənin rəhbərləri, generalları Ulu Öndər, Heydər Əliyev məktəbinin davamçısı, hörmətli Prezidentimiz İlham Əliyev siyasətindən dərs almalıdırlar, İlham Əliyev praktikasını Türkiyə rəhbərləri də həyata keçirməlidirlər ki, Türkiyəni bu çıxılmaz durumdan xilas etsinlər.

Tarixdə elə bir ixtilaf, elə bir müharibə yoxdur ki, sonu danışıqlar və sülh yolu ilə qurtarmasın. Bu addım kürdlərin yaşadığı bölgələrədə də atılmalıdır. Türkiyədə səfərdə olarkən bir daha əmin oldum ki, bu ölkədə yaşayan türk və kürd xalqları tarixən bərabər yaşayıblar, qız verib, qız alıblar, qaynayıb qarışıblar. Fikrimcə, bugünkü türk-kürd qarşıdurması dünya silah ixracatçılarının hazırladığı plan əsasında baş verir. Orada yaşayan kürd xalqı israrla bəyan edirlər ki, əgər Türkiyədə Kürd İşçi Partiyası ilə hökumət qüvvələri arasında sülh bağlanarsa, dövlət Abdulla Öcalanı və dağlara çəkilən PKK-çıları əfv edərsə, problem çözülər. Belə olduqda, bu iki qardaş xalqı üz-üzə qoyan böyük dövlətlərin planları altüst olar. İndii Türkiyədə hakimiyyətin "kürd açılımı" deyilən bir proqramından danışılır. Bu məsələ Türkiyə hökuməti və ictimaiyyətinin prioritetinə çevrilib. Müşahidələrimdən belə qənaətə gəldim ki, hakimiyyət bu məsələnin müsbət həllində maraqlıdır. Lakin milli qüvvələr, müxalifət və səlibçilərə xidmət edən"Ərqənəkon"-çular hakimiyyətin atacağı humanist addımdan, apardığı barış siyasətdən əndişələnirlər. Əndişələnirlər ona görə ki, bu iki qardaş xalqın QANI bahasına əldə etdikləri qazanc əldən çıxmasın. Əgər qarşıdurma bitərsə generallar kiminlə savaşacaqlar? Milyardlarla hərbi sursatın pulunu necə mənimsəyəcəklər?

Onları bu məsələ düşündürür, ona görə də əllərindən gəldikcə "kürd açılımı" məsələsinə əngəl törətməyə çalışırlar.

Kürd xalqı isə Abdulla Gülün, Təyyub Ərdoğanın "kürd açılımı" məsələsinin sözdən əmələ keçəcəyi günü səbrsizliklə gözləyir.

Fikirimcə, dünyanın diqqətini çəkən belə bir həssas bölgədə hökumət qüvvələri ilə PKK-çılar arasında silahlı qarşıdurmanın baş verməsi indiki halda məntiqə sığan deyil. Düşünürəm ki, təcili olaraq bu məsələlər masa arxasında danışıqlar yolu ilə öz həllini tapmalıdır. Öcalan da silahdaşları da Türkiyə vətəndaşıdır, onu məhf etməyə çalışan, savaşan türk ordusu da.

Mənə elə gəlir ki, səlibçilər yeni "Səlib Yürüşü"-nü başlamışlar, lakin İslam Dünyasının bundan xəbəri yoxdur. Bəlkə də xəbərləri var, nədənsə susurlar. Görəsən, nə vaxta kimi müsəlman dövlətləri münaqişə ocağı olacaq? Nə vaxta qədər qardaş qardaşın qanını axıdaraq səlibçilərə beş-üç quruş pula görə xidmət edəcək? Niyə qardaşın demokratik haqqını qardaşdan səlibçilər tələb etməlidir? Niyə, nə üçün?...

Nədən səlibçilərə nüvə silahı hazırlamaq olar, İslam dövlətlərinə, İslam dünyasına olmaz, nədən? Nədən səlibçilər bütün millətlərin, xalqların demokratik haqqlarını versin və tanısın, amma Uca Tanrının gözəl və müqəddəs qanunlar bəxş etdiyi Müqəddəs Qurani-Kərimə itaət edən, İslam dinini qəbul etmiş dövlət rəhbərləri öz dindaşlarına olmazın zülmünü etsin?

Nədən dünyada yalnız İslam dövlətlərində müharibə, terror, qırğın, ölüm olmalıdır? Nədən?

Görəsən ABŞ, İngiltərə və başqa sionist dövlətlər İraqda, Əfqanıstanda, Pakıstanda nə itiriblər və nə axtarırlar? İranın, Türkiyənin, Suriyanın və başqa müsəlman ölkələrin işinə niyə müdaxilə edirlər?

Niyə Avropa Parlamenti, Avropa Birliyi, Avropa ordusu olsun, lakin səlibçilərə qarşı bir İslam Birliyi, qurumu, ordusu olmasın?

Görəsən, tarix qəhrəman Kürd xalqının oğlu, müsəlman dünyasını xaç yürüşündən xilas edən Səlahəddin Əyyubi kimi bir qəhrəman yetirəcəkmi, İslam Dünyasını birləşdirib araqarışdıran səlibçilərə qarşı birgə mübarizə aparsın, növbəti Xaç Yürüşünü qarşısını alsın?

Nədən Bosniya, Slavakiya, Hersoqavina, Xarvatiya məsələləri bir ay ərzində öz müsbət həllini tapsın, lakin Əfqanıstan, Pakistan, İraq, İran, Suriya, Azərbaycan, Türkiyə, Çeçenistan, Fələstin kimi müsəlman ölkələrində fasiləsiz qardaş qanı müxtəlif terror üsulları ilə tökülsün? Nədən? Demək olar ki, qardaş Türkiyə Respublikasında, Cumhurriyyətin yarandığı günündən bu günə qədər vətəndaş müharibəsi gedir, günahsız insanların qanları tökülür. Tökülən qardaş qanının qarşısını almağa çalışanları isə səlibçilərə xidmət edən qüvvələr zamanında aradan götürüblər. 1980-ci ildə ərqənəkonçu-səlibçilərin etdikləri hərbi çevriliş zamanı Türkiyə xalqının başına gətirilənlərin acısı hələ bitməyib.Turqut Özal da Türkiyəni səlibçi-xidmətçilərindən xilas etmək istədi, demokratik bir addım atmağa çalışdı, lakin o da səlibçilərə xidmət edənlərin qurbanlarından birinə çevrildi.

# SİYASƏTİNİN GÖRÜNMƏYƏN TƏRƏFİ

***Hal-hazırda, Türkiyənin indiki rəhbərliyi və DTP-e, qardaş qırğınına son qoymaq üçün demokratik bir addım ataraq “kürd açılımı” prosesinə başlamışdı. Lakin çox çəkmədi, səlibçilərə xidmət edən ərqənəkonçuların plan və proqramına əsasən, artıq DTP-e bağlandı və nəticədə bilərəkdən borclar içində inildəyən Türkiyəni iflic vəziyyətinə saldılar. Deməli səlibçilər Tyrkiyəni xaosa sürükləməkdədirlər.***

Bu xaosun qarşısını almaq üçün, Türkiyə rəhbərliyi önəmli addımlar atmalıdır və Ulu Öndər, Böyük Heydər Əliyev siyasətindən bəhrələnməlidir.

Mənə elə gəlir ki, İlk öncə Türkiyə hərbi konstitusiyasını dəyişərək, sivill konstitusiya ilə əvəz edilməli, ölkənin Ali Baş Komandanlığı ölkə prezidentinə həvalə edilməli, bu ölkədə yaşayan bütün xalqların demokratik haqları tanınmalı, Türkiyədəki kürd toplumunun istəyinə uyğun olaraq PKK rəhbəri azadlığa buraxılmalı, dağdakı PKK gerillalarına ümum əfv fərmanı çıxarılmalı, 4500 kürd kəndinin əhalisini doğma kəndlərinə qayıtmasına şərait yaradılmalıdır. Belə olarsa, Türkiyənin iqtisadiyyatı qısa müddətdə sürətlə inkişaf edər və xarici borclardan azad ola bilər.

Türkiyədə onillərdən bəri davam edən türk - kürd qarşıdurmasının həlli nəhayət, indiki AKP hakimiyyətinin əsas hədəfinə çevrilib. Hazırda bu məqsədlə proqram da işlənməkdədir.

Görəsən bu illər ərzində minlərlə günahsız türk və kurd insanının qanına bais olmuş münaqişənin ürəklərdə yaratdığı nifrət və qisasçılıq hisslərini kimin ayağına yazmaq lazımdır? Mən yuxarıda Azərbaycanı boşuna müqayisə etmədim.

Rəsmi Ankara, Heydər Əliyev siyasətindən, onun 90-cı illərin əvvəllərində ölkəmizdə yaşanan milli-etnik problemləri necə müdrükcəsinə yoluna qoymasından örnək götürməlidir. Heydər Əliyev 20% torpaqlarımızı işğal edən ermənilərlə atəşkəs müqaviləsi bağlayaraq, Azərbaycanı yuxarıda sadaladığımız kritik vəziyyətdən böyük ustalıqla çıxara bildi. Lakin Türkiyə generalları PKK-nın atəşkəs çağırışına tankla, topla, təyyarələrlə cavab verir. Arada sadə kürd və türk oğulları öldürülür. Deməli bu generallara muharibənin uzanması sərfəlidir, çünki silah tacirləri ilə əlbirdirlər.

Necə ki bizim bir sıra "komandir" lər, Qarabağ savaşı zamanı meydlərin alınıb satılmasını, ərazilərin dəyişdirilməsini qazanc mənbəyi etmişdilər.

Türk generalları 80 il kürd xalqının varlığını dandı və onları "dağ türkləri" kimi asimiliyasiya etməyə çalışdılar. Lakin PKK nın apardığı silahlı mübarizə generallara Türkiyədə 35 milyon kürd xalqı olduğunu etiraf etdirdi və bu xalqın mədəni haqqlarının verilməsini tələb etdi. Bu məsələ indi Türkiyə ictimaiyyətinin diqqət mərkəzindədir.

**Bu günədək Türkiyədə 4500 kürd kəndi dağıdılıb. Əgər bunu on minlik PKK döyüşçüləri edibsə, onda dünyanın ən müasir silahlı qüvvələrindən sayılan Türkiyə ordusu hara baxırdı?**

**Yox, əgər bunu PKK ilə mübarizədə ordunun özü edibsə, buna nə ad verməklolar?!**

Yalnız dövlət terroru!

Bu gün İraq Federativ Respublikadır. Prezidenti də kürddür və burda qəribə heç nə yoxdur. Kürdüstan demokratikcəsinə, orda yaşayan bütün xalqların haqqlarının tanınması ilə Yaxın Şərqdə hörmət qazanıb və bu demokratiyaya görə böyük inkişaf əldə edib. Bu demokratiya qardaş Türkiyədə və İranda da həyata keçirilməlidir

Artıq bu gün, türk-kürd anaları televiziyalarda, ictimai-siyasi yığıncaqlarda əl-ələ verərək, bu mənasız müharibənin dayanmasını istəyirlər.

Arzu edirəm, qardaş Türkiyədəki problemlər də tezliklə öz həllini tapsın, türk və kürd analarının göz yaşlarına son verilsin, hər iki tərəfin şəhid məğarları toy məğarları ilə əvəz olunsun və əhali sülh şəraitində əmin-aman qardaşcasına birgə yaşasınlar. Nəzərə alın ki, dağıdılan 4500 kürd kəndinin əhalisi böyük şəhərlərə axışıb, göbələk kimi şəhər ətrafında gecəqondular tikilir, qeydiyat olmadığı üçün uşaqlar məktələrə götürülmürlər, işsiz gənclərə isə bir hay lazımdır . Deməli, 4500 kəndin ərazisində nə əkin-biçin becərilir, nə də maldarlıq inkişaf edir. Yəni ölkənin iqtisadiyyatına dəyən ziyanın ölçüsü göz önündədir. Hələ mən işi-gücü olan insanların işsiz qalmasını, uşaqların təhsildən ayrılmasını və nə ilə məşğul ola biləsəklərini demirəm. Ona görə də ilk öncə qoruyucuuluq sistemi ortadan qalxmalı, həmin kəndlər təcili dövlət tərəfindən bərpa olunmalı və əhali öz kəndlərinə, evlərinə qayıtmalıdır. Bu, ictimai-siyasi vəziyyətin normallaşması üçün vacibdir və bu məsələ təcili həyata keçıirilməlidir.

Allah-Təala Türkiyəyə elə zəngin təbiət bəxş edib ki, bu varidad dünyanın heç bir ölkəsində yoxdur. Bu sərvətlərdən birgə yararlanıb dövləti inkişaf etdirmək lazımdır.

Sir deyil ki Avropa iqtisadiyyatı Türkiyə və digər şərq ölkələrinin təbii xammal ehtiyatı və işçi qüvvəsi hesabına möhkəmlənib. Onların yalnız texnologiyası inkişaf edib. Türkiyədə də sabitlik yaransa, qərb texnologiyası Türkiyəyə gətirilərsə, inanıram ki, ölkə iqtisadiyyatı rəhmətlik Turqut Özalın hakimiyyəti dövründəki inkişafından da sürətli inkişaf edər.

Tarixçilərin qənaətinə görə, bu münaqişəni vaxtı ilə Osmanlı imperiyasını dağıdan inhisarçı dövlətlər yaradıb. Çünki, o dövrdə Osmanlı ərazisində müstəqil və qeyri-müstəqil Kürdüstan dövlətləri olub və küpd xalqı ilə türk xalqı arasında heç bir problem olmayıb. Osmanlı imperiyası süquta uğrayandan sonra, Türkiyənin parçalanacağını görən Atatürk Kürdüstana, Anadolunun kürd ağsaqqallarına müraciət edib, onlardan kömək istəyib. Əvəzində isə onlara vəd verir ki, gələcəkdə Türkiyə türklərlə kürdlərin federativ dövləti olacaq. Bu anlaşma "Sevr" müqaviləsində də öz əksini tapsa da, "Lozan" anlaşmasında kürd məsələsi qulaq ardına vurulub. İsmət İnönü hakimiyyəti dövründə bunlar unudulub. İndiyədək Türkiyədə kürd xalqının 80-dən artıq silahlı üsyanları olub. Deyilənə görə, PKK bu məsələnin əvvəl sivil yolla həllinə çalışıb. Amma nəticə verməyəndə, Öcalan 1984-85-ci illərdə silahlı mübarizə yolunu seçib. Atatürkün kürd xalqına verdiyi vədin yerinə yetirilməsini tələb edib. Kürdlərin tələbində Türkiyə dövlətinin ikiyə bölünməsi məsələsi qoyulmayıb. Lakin indi məsələ uzanarsa, bu zaman maraqlı qüvvələr yəqin Türkiyəni iki yerə deyil, bir neçə ierə bölə bilərlər. Yenə deyirəm, xalqın yeganə istəyi vahid Türkiyə bayrağı altında federativ dövlətin yaradılmasıdır. Hal-hazırda DTP partiya rəhbərləri başda Ehməd Türk olmaqla, bütün siyasi təşkilatlar demək olar ki, hər gün hökumətə barış əllərini uzadırlar. Ama generallar barış əllərinin sahiblərini həbsxanalara doldurmaqla hədələyir və türk və kürd xalqlarını qarşı-qarşıya qoymaqla məşğuldur. Belə gedərsə millət vəkillərinin həbsinə başlana bilər və bunun sonu fəlakətlə nəticələnə bilər.



Fikir verin, PKK-nın yaradıcısı Abdulla Öcalandırsa, dağdakı gerillalar ona itaət edirsə, bu məsələdə başqaları yalnız vasitəçi ola bilər və DTP bu misyanı həyata keçirmək istəyir.

Araşdırmalara görə, Turqut Özal dövründə Cəlal Tələbani, Əhməd Türk və başqaları rəhbərliklə görüş keçirərək, Türkiyədə federativ dövlətin yaradılması məsələsini müzakirə ediblər.

Lakin "Ərgənəkon"-terrorçu generallar buna imkan verməyib və 17- min qeyri məchul cinayət törədilib, hansı ki, onların sümükləri indii Botaş quyularından çıxır. Həmin generalların bəziləri indiki "Ərgənəkon"çu terror təşkilatının üzvləri kimi mühakiməyə çəkilirlər.

Deyilənə görə, Turqut Özal ölümündən bir gün əvvəl ölkənin federativ respublika olduğunu elan etmək istəyib. Amma müəmmalı ölümü çoxlarını şok etmiş, hələ də onun ölümü xalqı düşündürür. Sonuc zəhərləndiyi söyləndi...

Sonradan ABŞ tərəfindən hakimiyyətə gələn Tansu Çillər və digərləri də bu məsələni ört-basdır etməyə çalışdılır. Amma bugünkü AKP hakimiyyətinin rəhbərləri olan Abdulla Gül və Təyib Ərdoğan keçmiş siyasətin heç də dövlətin xeyrinə işləmədiyini görüb, məlum "kürd açılımı" proqramını irəli sürüblər.

**Mən əminəm ki, kürdlərin milli-mədəni haqları tanınsa, qarşıdurmaya son qoyulacaq. Lakin nədənsə, Türkiyə hökuməti bu haqları tanımaqdan çəkinir. Azərbaycanda da az saylı xalqlar var. Talışın da, ləzginin də, kürdün də, avarın da öz dilində radiosu, qəzeti və sairi var. Burda hansısa problem yaranıbmı?**

Mənə elə gəlir ki, Türkiyə rəhbərləri təcili qərar verməli, bu məsələnin həllini tezləşdirməlidir. Əgər Türkiyə hökuməti də əvvəldən İlham Əliyev cənablarının azsaylı xalqlara göstərdiyi qayğını kürd xalqına hiss etdirsəydi, indiki vəziyyət yaranmazdı və bu problem çoxdan öz həllini tapardı. Yerli toplumun dediyinə görə, PKK tək tərəfli atəşkəs elan edib, İraq ərazisindəki dağlara çəkilib. Lakin generallar bu atəşkəsi pozaraq tankla, təyyarə ilə, vertaliyotla onların üstünə gedir və nəticədə hər iki tərəfdən ölkənin cavan oğlan və qızları həlak olur.

Ölkədəki ən iri hərbi təmayüllü zavodların əksəriyyəti onlara məxsudur. Yəni təqaüdə çıxandan sonra gedib otururlar orda və deməli, zavodun rentabelli işləməsi, istehsal etdiyi sursatın gəlir gətirməsi üçün bu kimi münaqişənin uzanması onlar üçün əhəmiyyətli və vacibdir. Heç kim öz "şahlıq" taxtından xoşluqla əl çəkməz! Hər zaman taxtının əminliyini qorumalıdır. Yuxarıda da da qeyd etdim ki, Amerika, İngiltərə və digər dövlətlər silahı Türkiyəyə də verir, PKK-ya da. Əgər bu qardaş qırğınları olmasa, inhisarçı dövlətlər köhnəlmiş silah sursatı kimə satıb mallarını "diriltməlidirlər" ki, yenilərini istehsal etsinlər. Əlbəttə, generallara, çünki bu silahların pulları sadə xalqın "cibindən" çıxır lakin qazanan generallar olur. Silah bazarını idarə edənlər, necə ki, Ermənistanı silahlandırırlar, eyni sursatı Azərbaycana da satırlar. Onları həmin silahla qırılan insanların taleyi yox, qazanacaqları pullar maraqlandırır.

***Tahir SÜLEYMAN***
***“Diplomat” qəzetinin baş redaktoru***



# 31 MART QIRĞININDAN 94 İL ÖTÜR

*Tanınmış ictimaiyyət nümayəndələri ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımların bir tarixdə birləşdirilib qeyd olunmasını təklif edir*

Bu il ermənilərin azərbaycanlılara qarşı törətdiyi mart hadisələrinin 94 ili tamam olur. 1918-ci il 30 mart -3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Bakı quberniyasının müxtəlif bölgələrində, habelə Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib. Həmin günlərdə təkcə Bakıda 12 mindən çox azərbaycanlı milli mənsubiyyətinə görə qətlə yetirilib. Bir həftəyədək davam edən qətliamlarda 50 min azərbaycanlı erməni terrorunun qurbanı olub.

Mart qırğını zamanı Bakı şəhərinin yalnız bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadının meyiti tapılıb. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan 2 min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır.

1918-ci ilin mart-aprel aylarında Şamaxıda 8 minə qədər dinc sakin qətlə yetirilib. Şamaxı Cümə məscidi də daxil olmaqla, əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdu. Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırılmış, əhalisi məhv edilmişdi. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən, qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək məhv edilib. Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırmış, Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edilmiş, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülüb. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı qətlə yetirilib və ya şikəst edilib, 50 min azərbaycanlı qaçqın düşüb. Təkcə mart ayında Şamaxının 58 kəndi Bakı Sovetinə bağlı erməni ordusu tərəfindən dağıdılıb. Təxminən 8 minə yaxın insan öldürülüb ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaq olub. 1918-ci ildə 15 min əhalisi olan Şamaxının əhalisi 1921-ci ildə təxminən 1700 nəfərə enmişdi. Quba qəzasına göndərilən daşnak dəstələrinin komandiri Hamazaspın başçılıq etdiyi daşnaklar 122 kəndi yandırıb, yerli sakinləri isə min bir əzabla qətlə yetiriblər. Azərbaycan prezidentinin 26 mart, 1998-ci il tarixli sərəncamı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan olunub.

Qeyd edək ki, bu il fevralın 26-da Xocalı soyqırımının 20 illiyi münasibətilə keçirilən izdihamlı mitinqlərin 31 mart soyqırım günü münasibətilə keçirilməsini təklif edənlər də var. Bu arqumenti ortaya atanlar təklifləri 31 mart soyqırımının əhatə dairəsinin daha geniş olması ilə əsaslandırılar.

Milli Məclisin (MM) deputatı Fəzail Ağamalı bildirdi ki, həm 31 mart, həm də Xocalı soyqırımı bir-birindən ayrılmamalıdır: "Heydər Əliyevin sərəncamı ilə soyqırım Azərbaycanda hüquqi qiymətini tapdı. Xocalı faciəsinin dünya çapında tanınmasına 31 mart soyqırımını da əlavə etməliyik. Hələlik, Xocalı faciəsi ayrıca təqdim olunur. 31 mart soyqırımı tarixə çevrilmiş bir hadisədir. Əlimizdə olan tarixi faktlardan istifadə etməliyik. Bu soyqırımın bir elementi kimi Quba məzarlığını da dünyaya geniş şəkildə təqdim etməliyik. Təəssüf ki, onun restavrasiyası başa çatmayıb. Məzarlığın muzeyə çevrilməsi gecikir. Aidiyyəti qurumlar bunu sürətləndirməlidirlər".

F.Ağamalı qeyd etdi ki, ermənilər qondarma "soyqırım" təbliğatına SSRİ-nin tərkibində olanda başlayıblar: " O zaman soyqırım abidəsi tikildi. Ermənistanda bu məsələni tək dövlət öz inhisarına almayıb. Onlar buna həm də millət olaraq nail olublar. Dünyaya səpələnmiş soydaşlarımız bu işi hər zaman diqqətdə saxlamalıdır. Ermənistanın faşist dövlət, ermənilərin isə faşist millət olduğunu önə çəkməliyik. Leyla Əliyevanın "Xocalıya ədalət" kampaniyası konkret nəticələrini verib. Ən ciddi faktlardan biri Britaniya, Litva və Finlandiya rejissorlarının çəkildiyi "Sonu görünməyən dəhliz" filminin təqdimatı oldu. Xocalı soyqırımı bu filmdə yüksək səviyyədə lentə alınıb".

Araşdırmaçı jurnalist Nəsiman Yaqublu qeyd etdi ki, 31 mart soyqırımı ermənilərin azərbaycanlılara qarşı törətdiyi ən böyük qırğındı: "Həmin hadisələr zamanı Bakıda 12 min, bəzi mənbələrdə isə 14 min insanın qətlə yetirildiyi bildirilir. Mart soyqırımı tək Bakı ilə məhdudlaşmadı. Quba, Şamaxı və digər bölgələrdə də qətliamlar davam etdirildi. 1918-20-ci illərdə bu hadisəni qiyməti verildi. Xasməmmədovun başçılığı ilə ayrıca fövqəladə komissiyası yaradıldı. Kifayət qədər faktlar, şahid ifadələri toplandı. 1920-ci ildə Azərbaycan işğal edildikdən sonra istintaq işini yekunlaşdırmaq mümkün olmadı. Sovet hökuməti dövründə bu hadisələr yenə də unuduldu. Azərbaycan müstəqillik əldə etdikdən sonra, Xocalı hadisəsi kimi bu soyqırımına da hüquqi qiymət verilmədi".

N.Yaqublunun fikrincə, Azərbaycan tarixində baş verən faciəvi tarixləri ümumiləşdirib, bir soyqırım tarixi elan etmək lazımdır: "Hər iki gündən bir soyqırım deməyə dünya ictimaiyyəti də yaxşı baxmır. Xocalı kampaniyası bu il çox güclü oldu. Mart soyqırımına 10 gün qalır. Amma biz dünya ictimaiyyətinə heç nə çatdıra bilmirik. Böyük bir soyqırım muzeyi yaratmaq lazımdır. Ermənilər Amerikada böyük bir binanı alıb soyqırım muzeyi hazırlayırlar. Qondarma "soyqırım"ın 100 illiyi münasibətilə 2015-ci ildə böyük bir muzey açacaqlar. Biz nəinki xarici ölkədə, heç Bakıda bir soyqırım muzeyi yarada bilməmişik".

***Leyla İLQAR***

# "PKK görünür yenə də Suriya və İrandan daha çox dəstək almağa başlayıb"

**Gün.Az-ın İstanbuldan siyasi analitik Ekrem Güzeldere ilə müsahibəsi:**

**- Kürd məsələsinin Türkiyənin milli təhlükəsizliyi üçün riskə çevirən başlıca amilləri hansılardır?**

- Kürd məsələsi Türkiyə üçün ən önəmli daxili siyasi məsələsidir. Bu yeganə məsələdir ki, burada zorakılıq, hücum və hərbi əməliyyatlar tətbiq olunur. Lakin ümumilikdə milli təhlükəsizlik risk altında deyil.

Türkiyə 2004-cü ildən PKK-ya qarşı silahlı mübarizəyə başlayandan bəri ölkə iqtisadiyyatını illik 5 faizdən çox artırdı. Nəticədə o, regionun mühüm oyunçusuna çevrildi və 1950-ci illərdən bəri ən stabil hökumətə çevrildi. Burada söhbət milli təhlükəsizlikdən yox, Türkiyənin dövləti məhdud demokratiyadan plüralist dövlətə çevrilə bilib-bilməyəcəyindən gedir.

**- PKK hücumlarının intensivləşməsini necə izah etmək olar?**

- 2011-ci ilin iyun seçkilərindən sonra zorakılıq həm PKK, həm də Silahlı Qüvvələr tərəfindən əhəmiyyətli dərəcədə artdı. Ötən il seçkilərdən öncə, xüsusi xidmət orqanları ilə yüksək dərəcəli PKK komandirləri arasında Oslo prosesi adlanan danışıqlar gedən zaman vəziyyətin belə olacağı gözlənilmirdi.

Lakin seçkilərdən sonra bu danışıqlar dayandı və heç bir siyasi təşəbbüs irəli sürülmədi. Hücumlar və hərbi əməliyyatlar qış vaxtı belə səngimirdi. Halbuki, soyuq və qeyri-münasib hava şəraitində əməliyyatlar adətən azalırdı.

Artan zorakılığın həmçinin beynəlxalq səbəbləri də var. Suriyada çaxnaşmanın hökm sürdüyü bir vəziyyətdə PKK görünür Suriya və İrandan yenə də daha çox dəstək alır, lakin bunun nə dərəcədə olduğu hələ ki fərziyyədir.

**- Kürd məsələsini həll etmək üçün nə etmək lazımdır?**

- Etnik və dini qrupların tələblərini demokratik yolla yerinə yetirmək üsulları uzun müddətdir ki, bəllidir. Ən vacib addımlar siyasi sistemin desentralizasiyası və yerli idarələrin gücləndirilməsidir. Bu idarələr öz bələdiyyələri üzrə hansı dilin rəsmi dil olmasına qərar vermək səlahiyyətinə malik olmalıdır.

Bura həmçinin bağçadan tutmuş universitetə kimi verilən təhsilin hansı dildə olması ilə bağlı qərar da aiddir. Bunu mümkün etmək üçün Konstitusiyada yer alan, təhsil sistemi və bələdiyyələrdə türk dilindən savayı digər dilin tətbiqinin qadağan edən maddələrdə dəyişiklik edilməlidir. Buna görə də rəhbər Ədalət və İnkişaf Partiyası (AKP) ilə müxalifət partiyaları arasında, kürd məsələsinə gəldikdə isə, xüsusilə Barış və Demokratiya Partiyası (BDP) ilə dialoq aparmaq vacibdir. Son üç il ərzində bunun əksi baş verdi. 2009-cu ilin aprel ayından bəri PKK-nın baş təşkilatı Kürdistan Topluluqlar Birliyinin üzvləri və ehtimal olunan rəğbətçilərinə qarşı həbs dalğası başladı. Bu kütləvi həbs zamanı, 1500-dən artıq insan həbs edildi və 7000-dən çoxu nəzarət altına alındı. Bu cür kütləvi həbslər 2004-cü ildə Cinayət Məcəlləsində edilən dəyişikliklər və 2006-cı ildə qəbul edilmiş Antiterror qanunu sayəsində mümkündür.

Hər iki qanun terrorizmin tərifini genişləndirdi və qeydi-qanuni təşkilatları "təbliğ" edənləri və onların məqsədlərinə uyğun hərəkət edənləri cəzalandırmağı təyin etdi.

Bu qanunlar PKK üzvləri ilə ünsiyyətdə olan və nümayişlərə qatılan mülki şəxsləri həbs etməyə imkan verir. Səmərəli və etibarlı dialoq aparmaq üçün bu qanunlar dəyişilməli, həbs olunanların əksəriyyəti azadlığa buraxılmalı və bu həbslər dayandırılmalıdır. Bunu köklü dəyişikliklərə yol verməden və nəzəri baxımdan sürətlə etmək olar.

Lakin Ədalət və İnkişaf Partiyası cari dəyişiklikləri 2004 və 2006-cı illərdə etdiyi üçün qeyd etdiyim mümkün dəyişikliklər onların öz səhvlərini düzəltməsi kimi görünə bilər və bu da öz növbəsində məsələni daha da mürəkkəbləşdirə bilər. Buna baxmayaraq, bu cür addımlar atmadan dialoq qurmaq çox çətindir.

İkinci addım isə Türkiyədə, Şimali İraqda və Avropada olan PKK üzvləri ilə bağlı məsələnin həlli tapılmalıdır. Yəni təşkilatın cinayətkar fəaliyyətində bilavasitə iştirakı olmayanlar əfv edilməsi və onların cəmiyyətə inteqrasiyası təmin edilməlidir.

Məsələnin orta dərəcəli həlli kimi, təşkilatın yüksək səviyyəli üzvlərinin yenidən inteqrasiya edilməsi və PKK lideri Abdulla Öcalanın həbs vəziyyəti yaxşılaşdırılmalıdır. Əks təqdirdə, əgər heç bir şey təklif olunmursa, nə üçün PKK əməkdaşlığa razı olsun?

**- Kürd məsələsi ilə bağlı Azərbaycan Türkiyəyə necə bir köməklik göstərə bilər?**

- İlk növbədə bu daxili məsələdir və əsas oyunçular Türkiyənin tərəfdə olmalıdır. Türkiyənin daxilində dəyişiklik olmadan xaricdən gələn dəstək çox məhduddur. Cari vəziyyətdə önəmli oyunçulardan biri İraqın Kürdistan Regional Hökumətidir, çünki o Türkiyənin həm iqtisadi tərəfdaşıdır, həm də Türkiyə kürdləri arasında çoxlu təsir vasitələrinə malikdir.

Onları işə cəlb etmək PKK ilə dialoqa töhfə verə və onu sürətləndirə bilər. ABŞ və Avropa İttifaqı kimi regional və beynəlxalq oyunçular Türkiyədəki siyasi vəziyyətlə yenidən maraqlanmalı və demokratizasiya prosesinə dəstək verməlidirlər.

Bu işə həmçinin Barış və Demokratiya Partiyası cəlb oluna bilər və bununla göstərmək olar ki, onlar kürd hərəkatının beynəlxalq səviyyədə tanınmış demokratik nümayəndələridir. Lakin bir şeyə əmin olmaq lazımdır ki, demokratik prosesdə heç bir halda zorakılığa yol verilməməlidir. Bu həmin partiyanın kürdlərin və türklərin gözündə güclənməsinə və PKK-dan yaxa qurtarmasına kömək edə bilər.

***F.H., Gün.Az***

# Serok Barzanî li Peymangeha Washington ya Siyaseta Rojhilata Nêzîk gotarekî pêşkêş kir




Li Peymangeha Washington ya Siyaseta Rojhilata Nêzîk, birêz Mesûd Barzanî Serokê Herêma Kurdistanê gotarekî pêşkêş kir û têda tîşk xiste li ser rewşa niha ya Iraq û Herêma Kurdistan û navçeyê. Piştî pêşkêş kirina gotara xwe, Serok Barzanî bersîva hejmarek pirsiyarên amadevanan ya sebaret bi rewşa niha ya Iraq û Herêma Kurdistan û navçeyê û armanca serdana xwe ya Emerîkayê da.

Li bersîva pirsiyarekî Peymangeha Washington ya Siyaseta Rojhilata Nêzîk, sebaret bi helwesta Emerîka beramber bi Iraq û Herêma Kurdistanê, Serok Barzanî ragihand ku Serokê Emerîka û Cîgirê wî tekez li ser wê yekê kirin ku ew pabendin bi Iraqekî demokratî federalî û fireh alî. Her wiha pabendin bi Herêma Kurdistan û xelkê Kurdistanê. Her wiha Serok Barzanî got: Em tu demek li pey tolhildanê neketîn, em dixwazin rûpeleke nû li gel hemû aliyan vekîn û herdem me hewl ji bo aramiya asayîşê daye. Her ji bo wê yekê gelek ji welatên biyanî bi berdewamî hewla wê yekê didin ku pêwendiyên bazirganî û veberhênanê li Herêma Kurdistanê de encam bidin.

Di derbarê pêşketinên Herêma Kurdistanê jî Serok Barzanî tîşk xiste li ser wê yekê ku Herêma Kurdistanê bi berdewamî berev pêşveçûnê de ye û mînak jî ji bo vê rastiyê eweye ku li van deh salên derbasbûyî de heta niha asta nexwendewarî bi rêjeya sedî pencih û şeş guheriye sedî şanzdeh.

Sebaret bi rewşa asayîşa Iraqê jî Serokê Herêma Kurdistanê ragihand ku ji yek milyon zêdetir çekdar heye, lê belê kiryarên terorî stiyan her berdewamiya xwe heye û li rûyê siyasî ve jî niha Iraq li nav qeyranekî mezin daye. Serok Barzanî tekez li wê yekê jî kir ku ev Iraq bi xwîna xelkê Iraqê bi berhem hatiye, heta dawiyê jî bergiriyê lê dikîn.

Li bersîva pirsiyarekî din da di derbarê destûra Iraq, Serok Barzanî got: Destûra Iraqê destûrekî başe, lê belê rêjeya pabendbûna bi wê destûrê gelek lawaze û li heman demî de jî me hemûyan dengê xwe ji bo wê destûrê daye û min daxwaz ji aliyê siyasiyan kiriye bi pêkve rûnin û rê li dûbarebûna dîktatoriyetê li vî welatî da bigrin û peymana Hewlêrê cîh bi cîh bikin. Her wiha cext jî kir eger hemû aliyek rizamendî li ser vê pêvajoyê nebû, wê demê neçarîn eger çareseriya kêşeyan neyê kirin, her yek ji me vegerîn ser raya mîlletê xwe.

Li bersîva pirsiyarekî Serokê Peymangeha Washington ya Rojhilata Nêzîk, Serok Barzanî got: Iraq bi xwe divê çareseriya kêşeyên xwe bike, neku hêvî bibe destekî derekî û serdana min a ji bo vir, tu hêviyeke ji wan armancan li pişt xwe tûne, ku mebest jê hêvî birin bê ji bo welatek bi mebesta çareserkirina kêşeyan.

Li bersîveke din de Serok Barzanî got: Eve şeş sale soz nayên bi cîh kirin û em jî ji vê pêvajoyê bêzar bûne, ji ber ku her sozên bêkirdar didin, mînak jî ji bo vê rastiyê, xerc nekirina pereyê kompanyayên biyaniyane û yasaya newft gaz, her ji bo wê yekê şandina neft li Herêma Kurdistanê ya ji bo derveyê welat hatiye ragirtin.

Di derbarê qeyrana Sûriye jî bi taybetî pirsa Kurd li wî welatî da, Serok Barzanî tekez li wê yekê kir ku bi hemû awayekî piştevaniyê li Kurdên Sûriye dikîn, lê belê ewe jî eve nagihîne ku li ruyê serbazî ve yan pêdana çek em hevkariya wan bikîn, belku hewl ji bo ewe didîn bi awayeke dîblomatkariyane û aştiyane ji aliyê tu kesek ve mafên Kurdên rojava neyên binpêkirin.

Sebaret bi maddeya 140 a destûrê Iraqê, Serok Barzanî rûnîkir ku bi cîhkirina wê maddeyê çareseriyeke temame ji bo vê kêşeyê. Lê belê eve çend saleke Hikûmeta Iraqê bi berdewamî bi cîhkirinê radikin û em gelek ji dil ve dibêjîn navçeyên veqetandî neku navçeyên kêşe li ser, ji ber ku guman têda tûne ku ew navçe Kurdistanîne û roja çareserkirina wan jî her dihêt.

